


## Ermənilərin Rusiyadakı "soyqırımı" sərgüzəştləri: BİABIR OLDULAR!

7

# Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada iftar süfrəsi təşkil edilib

13



Səs
№ 071 (6512) 23 aprel 2022-ci il. Qiyməti 60 qəpik



# Şuşadan bütün dünyaya ZƏFƏR MESAJI!

2

*Bəlli olduğu kimi, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Ordumuzun düşmən işğalından azad etdiyi, Qarabağın döyünən ürəyi, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərində 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsinin iştirak etdiyi Dünya Azərbaycanlılarının V Zəfər Qurultayı öz işinə başladı. Qeyd edək ki, Dünya Azərbaycanlılarının V Zəfər Qurultayı son illər yüksək təşkilatlanma və birlik nümayiş etdirən, beynəlxalq...*

## "Azərbaycan Ermənistana sülh üçün 5 maddəlik baza prinsipi təklif edib"

*"Biz dövlət olaraq istəyirik ki, Azərbaycanın diaspor təşkilatlarının üzvləri yaşadıqları ölkənin layiqli vətəndaşları olsunlar".*

5



## Ermənilərin saxta "24 aprel" uydurması və...

8




*Tarixin qaranlıq, saxtalaşdırılmış səhifələrinə bir daha ötəri də olsa nəzər salaq. Ermənilərin 1890-cı ildən etibarən başlayan üsyanları 1915-ci ildə Osmanlı hakimiyyətinin radikal qərarlar qəbul etməsinə səbəb olub.*

## Heç bir yaradıcı qrupun tamaşaçının zövqünü korlamağa ixtiyarı yoxdur

7




*Yəqin ki, əksər insanların günlərlə keçə bilmədiyi, təkrar-təkrar baxdığı və hər dəfə fərqli düşüncələrə qapıldığı filmlər olub. Bizi ruhlandıran, ağladan, güldürən və ya qorxudan filmlər haqqında düşünəndə onların emosiya və davranışlarımıza nə qədər təsir etdiyini, hansı dəyişiklikləri yaratdığını anlayırıq...*



23 Aprel Dünya Kitab və Müəllifik Hüququ Günüdür. Bu barədə qərar 1995-ci ildə Parisdə UNESCO-nun Baş Konfransında qəbul edilmişdir. 1996-cı ildən etibarən isə kitaba və müəlliflərə hörmət əlaməti...

## 23 Aprel Dünya Kitab və Müəlliflik Hüququ Günüdür

13

## Rusiya Ermənistanı yenidən silahla təchiz edəcəkmi?

**Bir neçə gündür ki, müxtəlif erməni KİV-lərində Rusiyanın Ermənistanı silahla təchiz etməsi ilə bağlı materiallar, analitik yazılar, habelə şərhlər verilməkdədir.**

## Mehriban Nəsib: "Şuşada ilk Qurultayda iştirak etmək mənim üçün qürurvericidir"

5






## Bakıda polis özünü və nişanlısını öldürüb

16

Bakıda polis özünü və nişanlısını öldürüb. SİA-nın məlumatına görə, Daxili İşlər Nazirliyinin bölmə rəisi Zeyni Hüseynov bildirib ki, bu gün günorta saatlarında paytaxtın



## Xanımlar, diqqətli olun: Saç boyaları xərçəngə yol açır!

16

*Saçlar üçün boyaların təxminən 70 faizinin tərkibində insan orqanizmi üçün zərərli maddələr yer alıb. Belə ki, tədqiqatlar göstərib ki, saçlar...*

# Şuşadan bütün dünyaya ZƏFƏR MESAJI!

## İlham ƏLİYEV: "Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir"

***Bəlli olduğu kimi, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Ordumuzun düşmən işğalından azad etdiyi, Qarabağın döyünən ürəyi, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərində 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsinin iştirak etdiyi Dünya Azərbaycanlılarının V Zəfər Qurultayı öz işinə başladı. Qeyd edək ki, Dünya Azərbaycanlılarının V Zəfər Qurultayı son illər yüksək təşkilatlanma və birlik nümayiş etdirən, beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri ilə bağlı məlumatlandırılmasında xüsusi rol oynayan diasporumuzun Qarabağın azad edilməsindən sonra ilk böyük görüşüdür.***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qurultayda geniş nitq söyləyib və bildirib ki, tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir: "Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə Zəfər adı xalqımıza çox yaraşır". Dövlətimizin başçısı qurultay iştirakçılarının Zəfər yolu ilə gəldiyini deyib: "Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır. Hazırda ölkəmizin müxtəlif yerlərində, ilk növbədə, azad edilmiş ərazilərdə Zəfər muzeyləri inşa edilir".



### "BUNDAN SONRA AZƏRBAYCAN XALQI MÜZƏFFƏR XALQ KİMİ YAŞAYACAQ"

Dövlət başçısı çıxışı zamanı qəhrəman Azərbaycan xalqının bu torpaqda müzəffər xalq kimi əbədi yaşayacağını qurultay iştirakçılarına bildirdi: "Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi yaşayacaq, əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün böyük xoşbəxtlikdir".

"Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarısında misilsiz xidmətlər göstərmişlər",- deyən dövlət başçısı bu qələbəni müstəqillik dövründə yetişən gənclər bəxş etdiyini vurğuladı: "Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər".

### "ƏMİNƏM Kİ, QURULTAY İŞTİRAKÇILARI QƏDİM ŞUŞAYA BÖYÜK HƏVƏSLƏ GƏLİBLƏR"

"Bura gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Ulu öndər Heydər Əliyev həmin qurultayda dərin məzmunlu çıxışında Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmiş və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altındakı torpaqlar azad olunacaq və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaq",-deyən Prezident İlham Əliyev Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdi: "Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir. Əminəm ki, qurultay iştirakçıları da buna çox müsbət yanaşıblar və böyük həvəslə qədim Şuşaya, bizim mədəniyyətimizin paytaxtı olan Şuşaya gəlmişlər. Şuşa da öz doğmalarını bax belə günəşli hava ilə qarşılayır və bu, bir daha onu göstərir ki, bu, bizim tarixi torpağımızdır. Hətta təbiət, günəş də bizimlə həmrəydir". Azərbaycan Prezidenti çıxışı zamanı Qarabağ münaqişəsinin həllinin başlıca vəzifə olduğunu söylədi: "Qarabağ münaqişəsinin həll edilməsi mənim üçün Prezident kimi başlıca vəzifə idi. Prezident seçildiyim ilk gündən bu günə qədər bu məsələnin həlli və postmünaqişə dövrünün Azərbaycanın xeyrinə inkişaf etməsi mənim üçün başlıca vəzifədir",-deyən dövlət başçısı bütün qüvvələrin bu vəzifəyə səfərbər edildiyini vurğulayıb: "Biz hamımız - həm Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları, həm də dünya azərbaycanlıları bir nöqtəyə vururduq, bir hədəfə çatmaq üçün çalışırdıq. Mən deyirdim ki, hər birimiz hər gün öz əməyimizlə, işimizlə, hərə öz yerində bu müqəddəs günü yaxınlaşdırmalıyıq. Torpaqlarımızın işğaldan azad olunmasından daha vacib və ali vəzifə yox idi".

### "BİZ BÜTÜN DÜNYAYA SÜBUT ETDİK Kİ, AZƏRBAYCAN XALQI BÖYÜK XALQDIR"

Azərbaycan Prezidenti İlham Əliyev çıxışı zamanı bildirib ki, Azərbaycan xalqı həmişə böyük, güclü xalq olub: "Bizim bütün işlərimizin, apardığımız siyasətin, atdığımız addımların fövqündə bu müqəddəs günü yaxınlaşdırmaq dayanırdı. Biz buna öz gücümüzlə nail olduq".

Dövlətimizin başçısı qeyd edib ki, məhz buna görə ordu quruculuğu sürətlə aparılıb, Azərbaycan müasir ordu yaradıb, məhz buna görə gənc nəsil vətənpərvərlik və düşmənə nifrət ruhunda tərbiyə olunurdu: "Azərbaycan xalqı 30 il davam edən mənasız danışıqlar əvəzinə öz gücünü ortaya qoydu, ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi. Bütün dünyaya sübut etdi ki, biz böyük xalqıq və Azərbaycan xalqı heç vaxt işğalla barışmaq fikrində deyildi".

"Otuz ilə yaxın davam edən danışıqlar, sadəcə olaraq, bu işğalı əbədiləşdirmək, Ermənistanın işğalçılıq siyasətini pərdələmək və bizi bu acı vəziyyətlə barışdırmaq məqsədi güdürdü. Əlbəttə, biz heç vaxt buna razı ola bilməzdik və Vətən müharibəsindəki göstərdiyimiz iradə, qətiyyət, döyüş meydanındakı qəhrəmanlıq bunu bir daha göstərdi",-deyən Azərbaycan Prezidenti bildirib ki, müstəqillik dövründə vətənpərvərlik ruhunda yetişən gənclərimiz ölümə gedərək qələbə qazandıq: "Biz təkcə Ermənistanla müharibə aparmamışıq. Biz təkcə dünya erməniliyi ilə müharibə aparmamışıq, biz Ermənistanın himayədarları ilə müharibə aparmışıq və bu müharibədə Qələbə qazanmışıq. Ona görə bu Qələbənin tarixi əhəmiyyəti daha böyükdür. Biz sübut etmişik ki, ölümə getməyə hazırıq. Öldü var, döndü yoxdur və müstəqillik dövründə vətənpərvərlik ruhunda yetişən gənclərimiz ölümə gedirdilər, Vətən uğrunda bilərəkdən ölümə gedirdilər".

### "MÜHARİBƏ BAŞA ÇATSA DA, BİZƏ QARŞI OLAN ƏRAZİ İDDİALARI HƏLƏ Kİ, BAŞA ÇATMAYIB"

Dövlət başçısı çıxışı zamanı xüsusi olaraq vurğulayıb ki, bu qələbəyə inamı, xalq-iqtidar birliyi və bütün dünya azərbaycanlılarının birliyi sayəsində əldə olunduğunu deyib: "Biz bütün dünyaya sübut etdik ki, 21-ci əsrdə necə müharibə aparmaq lazımdır, ləyaqətlə müharibə aparmaq lazımdır, müasir üsullarla müharibə aparmaq lazımdır. Cəmi 44 gün ərzində Ermənistan ordusu tamamilə məhv edildi. Budur, xalqımızın böyüklüyü, xalqımızın qələbəyə inamı, xalq-iqtidar birliyi və bütün dünya azərbaycanlılarının birliyi".

Dövlətimizin başçısı xatırladıb ki, Ermənistan ordusunda müharibə zamanı kütləvi fərarilik hökm sürürdü. Onların özlərinin etirafına görə, on min fərari olub. Azərbaycan Ordusunda isə bir dənə də fərari olmayıb: "Mən bilirəm ki, siz və sizin kimi milyonlarla xaricdə yaşayan azərbaycanlı hərə öz ölkəsində müharibənin gedişatını yaxından izləyirdi. Eyni zamanda, öz çıxışlarınızda, şərhlərinizdə, sosial şəbəkələrdə və digər imkanlardan istifadə edərək, Azərbaycanın haqq səsini, haqq işini yaşadığınız ölkələrin ictimaiyyətinə çatdırırdınız. Buna bu gün də ehtiyac var. Çünki müharibə başa çatsa da, bizə qarşı olan ərazi iddiaları hələ ki, başa çatmayıb. Mən əminəm ki, bu da başa çatacaq. Əminəm ki, biz postmüharibə dövründəki göstərdiyimiz səylər nəticəsində və bundan sonra göstərəcəyimiz səylər nəticəsində Ermənistanın və dünya erməniliyinin Azərbaycana qarşı ərazi iddialarını da aradan götürəcəyik". Azərbaycan Prezidenti 1980-ci illərin sonlarında başlamış separatizm meyilləri faktiki olaraq Qarabağın böyük hissəsini Azərbaycandan qopardığını deyib: "Hələ Sovet İttifaqı dövründə bunu etdilər. Xüsusi idarəetmə komitəsi yaradıldı və Moskvadan bir ermənipərəst adam təyin olundu",-deyən dövlət başçısı qurultayda çıxışı zamanı bildirib ki, "dəmir yumruq"la düşmənin başını əzib, tarixi ədaləti və milli ləyaqəti bərpa etdik: "Ondan sonrakı tarix də bəllidir. Bax, bizim xalqımız iki əsr ərzində bütün bu iztirablardan keçib və nəhayət, öz sözünü deyib. Nəhayət, "dəmir yumruq"la düşmənin başını əzib, tarixi ədaləti və milli ləyaqəti bərpa edib. Ona görə, bax, çox vacibdir ki, bu tarixi məqamlar daim diaspor təşkilatlarının gündəliyində olsun".

### "MƏN ÇOX ŞADAM Kİ, DİASPOR TƏŞKİLATLARIMIZ AZƏRBAYCAN İLƏ DAİM TƏMASDADIRLAR"

"Mən çox şadam ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımız Azərbaycan ilə daim təmasdadırlar. Müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatları arasında koordinasiya da təkmilləşir. Bu da çox vacibdir",- deyən Prezident xaricdə yaşayan azərbaycanlıların öz tarixi Vətəni ilə sıx bağlı olmağını bildirib: "Əlbəttə, biz hamımız istəyirik ki, xaricdə yaşayan azərbaycanlılar öz tarixi Vətəni ilə sıx bağlı olsunlar.

Ardı Səh. 3

# Şuşadan bütün dünyaya ZƏFƏR MESAJI!

## İlham ƏLİYEV: "Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir"

Əvvəli-Səh-2

Heç olmasa ildə bir dəfə hər bir azərbaycanlı öz ailəsi ilə Azərbaycana gəlsə çox yaxşı olar - xüsusilə azad edilmiş torpaqlara getmək üçün. Bu gün biz qurultayı Şuşada keçiririk. Azad edilmiş ərazilər on min kvadratkilometrdən çoxdur və indi marşrutlar da açılır, aeroportlar da tikilir. Ona görə gəliş-gediş çox rahat olacaq".

Prezident İlham Əliyev çıxışı zamanı bütün nəsillərin öz mədəniyyətinə bağlı olmasını vurğuladı: "Əlbəttə, çox istəyirik ki, ikinci, üçüncü nəsil azərbaycanlılar öz mədəniyyətinə bağlı olsunlar. Əlbəttə, bu, o qədər də asan məsələ deyil",-deyən dövlət başçısı diqqətə çatdırıb ki, xaricdə yaşayan soydaşlarımız, ilk növbədə, Azərbaycan dilini bilməlidirlər. Təkcə ailələrdə Azərbaycan dilini yaşatmaq kifayət deyil: "Ona görə biz Azərbaycan məktəblərinin açılmasına da hər zaman kömək göstərməyə hazırıq. Əslində bunu edirik. Bəlkə də bunu daha da təşkilatlanmış şəkildə etmək lazımdır. Çünki Ana dili əsas faktordur. Ana dili bütün Azərbaycan vətəndaşlarını birləşdirir".





### "MİNSK QRUPU MÜNAQİŞƏNİ HƏLL ETMƏK ÜÇÜN YOX, İŞĞALI ƏBƏDİLƏŞDİRMƏK ÜÇÜN YARADILMIŞDI"

Dövlət başçısı nitqi zamanı 1992-ci ildən bu məsələni həll etmək üçün mandat almış Minsk qrupunun heç bir nəticə əldə etmədiyini və artıq bu qurumun iflic olduğunu deyib: "Əfsuslar olsun ki, bu gün Ermənistanda hələ də yüksək vəzifəli şəxslər Minsk qrupu haqqında sözlər deyirlər. Hesab edirəm ki, bu, əbəsdir, bunun heç bir mənası yoxdur. Minsk qrupu faktiki olaraq 2019-cu ildə iflic olub".

Dövlətimizin başçısı deyib ki, 1992-ci ildə bu məsələni həll etmək üçün mandat almış Minsk qrupu faktiki olaraq heç bir nəticə əldə etməyib. İndi bu qrupun tarixçəsinə və hərəkətlərinə, verdiyi təkliflərə nəzər yetirərkən bir daha görmək olar ki, o, məsələni həll etmək üçün yox, işğalı əbədiləşdirmək üçün yaradılmışdı. Minsk qrupunun həmsədr ölkələrində erməni lobbi qruplarının təsiri çoxdur. Məhz buna görə 28 il bu qrupun heç bir nəticəsi olmayıb.

"Şuşada keçirilən Qurultayın çox böyük tarixi mənası var. Bu gün Azərbaycan yeni dövrə qədəm qoyub. Biz otuz il işğal edilmiş ölkə kimi yaşamışıq. Bu, bizim üçün çox ağır idi - mənim üçün Prezident kimi, hər bir vətəndaş üçün, sizin üçün - xaricdə yaşayan azərbaycanlılar üçün". Bu barədə Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı bildirib. Ancaq bu gün vəziyyətin tam fərqli olduğunu vurğulayan dövlətimizin başçısı deyib: "Bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq. Bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz".

### "BU GÜN AZƏRBAYCAN ORDUSU İSTƏNİLƏN VƏZİFƏNİ İCRA EDƏ BİLƏR"

"Biz faşizmi məhv etdik, Cənubi Qafqazı faşizmdən xilas etdik. Ancaq hələ də faşizmin təzahürləri baş qaldırır, hələ də Ermənistanda bəzi dairələr, xarici ölkələrdə yaşayan ermənilər bizi hədələməyə çalışırlar. Amma İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmamalıdır". Bu fikirləri Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı söyləyib.

"Biz gücümüzü artırmışıq. İl yarım ərzində ordu quruculuğu sahəsində çox böyük işlər görüldü. İndi bu işlərin bir hissəsi ictimaiyyətə təqdim edildi, bir hissəsi, əlbəttə ki, təqdim edilə bilməz. Ancaq hər kəs bilməlidir, bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Həm döyüş qabiliyyəti, həm milli ruh, həm mənəvi ruh, silahsursat, texnika, yeni döyüşkən hərbi birləşmələrin yaradılması - bütün bunları biz məhz ona görə edirik ki, erməni faşizminin hələ də təzahürləri var və əgər erməni faşizmi bir daha baş qaldırarsa, biz onu hər an əzməyə hazır olmalıyıq və hazırıq. Ermənistan bunu yaxşı bilir, yaxşı başa düşür və heç vaxt bunu unutmamalıdır", - deyə dövlətimizin başçısı bildirib.

### "ERMƏNİSTAN ORDUSUNDAN İKİ-ÜÇ DƏFƏ AZ İTKİ VERMƏKLƏ BİZ TARİXİ MİSSİYAMIZI YERİNƏ YETİRDİK"

"Bizim 44 gün ərzində əldə etdiyimiz Qələbə bir çoxları üçün gözlənilməz idi. Hərbi ekspertlər, siyasətçilər, bu məsələ ilə məşğul olan müxtəlif təşkilatların nümayəndələri bizə həmişə deyirdilər ki, bu müharibəni Azərbaycan uda bilməz. Çünki Ermənistan bu 30 il ərzində işğal edilmiş torpaqlarda istehkamlar, müdafiə xətləri qurmuşdu. Eyni zamanda, Qarabağın təbii relyefi elədir ki, torpaqları azad etmək çətin olacaq, çoxlu itkilər olacaq",- deyən Azərbaycan Prezidenti Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı bildirib ki, Azərbaycan əsgəri gücünü, Vətən sevgisini göstərdi və Qələbə qazandı. Bu fərziyyələrin nəticə etibarilə özünü doğrultmadığını qeyd edən dövlətimizin başçısı deyib: "Onlar bir məsələni diqqətdən kənarda qoymuşdular, Azərbaycan xalqının əzmini, Azərbaycan əsgərinin gücünü, Vətən sevgisini. Bəli, bəzi yerlərdə beş, bəzi yerlərdə altı müdafiə xətti qurulmuşdu, istehkamlar qurulmuşdu. Bölgənin coğrafiyası bizim üçün çox əlverişsiz idi. Bütün bunlara baxmayaraq, az itki verməklə, Ermənistan ordusundan iki-üç dəfə az itki verməklə biz tarixi missiyamızı yerinə yetirdik və son nöqtəni burada - tarixi şəhərimizdə qoyduq".

Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, torpaqlarımızı 44 gün ərzində azad etdik: "Biz cəmi 44 gün ərzində düşməni torpağımızdan qovduq. Ermənistan bizim qabağımızda diz çökdü, başını əydi, kapitulyasiya aktına imza atmağa məcbur oldu, imdad dilədi və bu gün də həmin vəziyyətdədir. Bu gün də yer qalmayıb ki, qapısını döyməsin ki, amandır Azərbaycan bizi hədələyir, Azərbaycan bizi burada boğmaq istəyir".Bu barədə Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı bildirib və vurğulayıb ki, biz öz torpağımızı heç kimə verəsi deyilik: "Biz öz vəzifəmizi icra etmişik. Bizim başqa dövlətlərin torpağında gözümüz yoxdur, heç vaxt olmayıb. Ancaq biz öz torpağımızı heç kimə verəsi deyilik və İkinci Qarabağ müharibəsi bunu bir daha sübut etdi".

Prezident vurğulayıb ki, münaqişəyə son qoyan qəhrəman Azərbaycan əsgəri oldu. "Müharibənin son hadisələri məhz burada - Şuşada baş vermişdir. Sıldırım qayalara dırmaşaraq bizim qəhrəman əsgərlərimiz, zabitlərimiz demək olar ki, əlbəyaxa döyüşlərdə burada topla, tankla, artilleriya ilə silahlanmış Ermənistan ordusuna qalib gəldilər", - deyə Prezident İlham Əliyev vurğulayıb.

### "XARİCDƏ YAŞAYAN AZƏRBAYCANLILAR BÖYÜK QÜVVƏDİR, ONLARIN FƏALİYYƏTİ ÖLKƏMİZ ÜÇÜN ÇOX ÖNƏMLİDİR"

"Biz cəmi 44 gün ərzində düşməni torpağımızdan qovduq. Ermənistan bizim qabağımızda diz çökdü, başını əydi, kapitulyasiya aktına imza atmağa məcbur oldu, imdad dilədi və bu gün də həmin vəziyyətdədir. Bu gün də yer qalmayıb ki, qapısını döyməsin ki, amandır Azərbaycan bizi hədələyir, Azərbaycan bizi burada boğmaq istəyir". Bu barədə Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı bildirib. Dövlətimizin başçısı deyib: "Biz öz vəzifəmizi icra etmişik. Bizim başqa dövlətlərin torpağında gözümüz yoxdur, heç vaxt olmayıb. Ancaq biz öz torpağımızı heç kimə verəsi deyilik və İkinci Qarabağ müharibəsi bunu bir daha sübut etdi".

Prezident vurğulayıb ki, münaqişəyə son qoyan qəhrəman Azərbaycan əsgəri oldu: "Müharibənin son hadisələri məhz burada - Şuşada baş vermişdir. Sıldırım qayalara dırmaşaraq bizim qəhrəman əsgərlərimiz, zabitlərimiz demək olar ki, əlbəyaxa döyüşlərdə burada topla, tankla, artilleriya ilə silahlanmış Ermənistan ordusuna qalib gəldilər".

Bəli, bu gün Dünya Azərbaycanlılarının Zəfər Qurultayının Ali Baş Komandanımız, Prezident İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Ordumuzun düşmən işğalından azad etdiyi Azərbaycanın mədəniyyət paytaxtı Şuşada kecirilməsi Azərbaycan xalqının, qürurlu, cəsarətli, yenilməz xalq olduğunu bir daha dünyaya nümayiş etdirdi. Azərbaycan qalib ölkədir, xalqımız qalib xalqdır, Qarabağ Azərbaycandır!!

***R. KAMALQIZI***

# Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada iftar süfrəsi təşkil edilib









***Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada Azərbaycan Günü və iftar süfrəsi təşkil edilib. SİA xəbər verir ki, Moskva Müsəlmanları Ruhani İdarəsinin, Rusiya Müsəlmanları Ruhani İdarəsinin və Moskva Hökumətinin təşəbbüsü ilə Poklonnaya qorada təşkil olunmuş "Ramazan çadırı" tədbirində ictimai xadimlər, Azərbaycan diasporunun nümayəndələri, müxtəlif millətlərdən olan 1000 nəfərə müsəlman iştirak edib.***

Heydər Əliyev Fondunun RF-dəki nümayəndəliyinin humanitar proqramlarının rəhbəri Tamilla Əhmədova tədbirdə iştirak edənlərin hamısına təşəkkürünü bildirib. O qeyd edib ki, Müqəddəs Qurani-Kərimin nazil olduğu müqəddəs Ramazan ayında iftar mərasimində görüş təşkil edilməsi yaxşı bir ənənəyə çevrilib. İslam dəyərləri bizim milli mənəviyyatımızın ayrılmaz tərkib hissəsidir. T.Əhmədova vurğulayıb ki, bu gün Azərbaycan iqtisadi, siyasi və mədəni sahələrdə lider olmaqla yanaşı, həm də dünya miqyasında dini-mənəvi dəyərlərin inkişafına böyük töhfə verən multikulturalizm mərkəzi kimi məşhurdur.

Heydər Əliyev Fondunun nümayəndəsi deyib: "Poklonnaya qoradakı memorial məsciddə gözəl bir ənənə yaranıb: bu müqəddəs Ramazan bayramı Azərbaycan diasporunun və müsəlman ümməsinin digər nümayəndələri ilə birgə qeyd edilir. Heydər Əliyev Fondunun nümayəndəliyi hər il müsəlmanlar üçün iftar süfrəsinin təşkilində fəal iştirak edir".

Moskvadakı Müsəlman məktəbinin direktoru Anas Həzrət Məmmədov tədbir iştirakçılarının hamısını müqəddəs Ramazan ayı münasibətilə təbrik edib, bu tədbirin keçirilməsinə görə, Heydər Əliyev Fonduna təşəkkürünü bildirib. O qeyd edib ki, bu gün azərbaycanlılar üçün, Moskvada yaşayan bütün müsəlmanlar üçün mühüm hadisədir.

"Ramazan çadırı"nın təşkilatçıları Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya dini-mənəvi dəyərləri yüksək qiymətləndirdiyinə görə təşəkkür məktubu ünvanlayıblar.

Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə hazırlanmış "Vətən ruhu" video-çarxı nümayiş etdirilib. Moskva Müsəlman məktəbinin şagirdləri dini məzmunlu şeirlər oxuyub, Moskva Dövlət Konservatoriyasının azərbaycanlı tələbələri Azərbaycan bəstəkarlarının əsərlərini ifa ediblər. Mərasim iştirakçılarına "Baku" jurnalının nömrələri paylanılıb. İftar başlanana qədər müqəddəs Qurandan ayələr və axşam duası oxunub. Sonra müsəlmanlar Azərbaycan milli yeməkləri və şirniyyat dadıblar.

Qeyd edək ki, Rusiya Müftilər Şurasının mühüm layihəsi olan "Ramazan çadırı" xalqlar arasında dostluğu möhkəmlətmək, İslam dininə etiqad edən çoxsaylı xalqların Moskvada yaşayan nümayəndələrini birləşdirmək məqsədilə təşkil olunur. Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyi hər il bu layihədə fəal iştirak edir, dindarlar üçün iftar süfrəsi açır.






# "Azərbaycan Ermənistana sülh üçün 5 maddəlik baza prinsipi təklif edib"



"Biz dövlət olaraq istəyirik ki, Azərbaycanın diaspor təşkilatlarının üzvləri yaşadıqları ölkənin layiqli vətəndaşları olsunlar". SİA-nın məlumatına əsasən, bunu Prezidentin köməkçisi Hikmət Hacıyev Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında panel müzakirələri zamanı deyib. O bildirib ki, diaspor üzvləri yaşadıqları ölkələrin qayda-qanunlarına əməl etməli və Azərbaycan həqiqətlərinin çatdırılmasında fəal rol oynamalıdır.

Hikmət Hacıyev deyib ki, bu gün dünya reallığında yalnız bir supergüc var: "Bu supergüc ictimai rəydir. Diaspor nümayəndələri hər biri yaşadıqları ölkədə fəal iş aparmaqla ictimai fikrə təsir edə bilər",-deyə o əlavə edib. Hikmət Hacıyev bildirib ki, xarici ölkələrdə Azərbaycan məktəblərinin və ya virtual Azərbaycan məktəblərinin yaradılması prosesi gedir.

Möhtərəm cənab Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayında etdiyi çıxışla qarşımıza konseptual, proqram xarakterli istiqamət qoydu. O bildirib ki, Azərbaycan diasporunun qarşısında yeni çağırışlar dayanır. Hikmət Hacıyevin sözlərinə əsasən, erməni lobbi dairələri Azərbaycana qarşı təbliğat kampaniyaları davam edir.

"Bu yaxınlarda Avropa Parlamentinin qəbul etdiyi qətnaməyə diqqət çəkmək istəyirəm. Belə qətnamə qəbul etdilər ki, guya Qarabağda erməni irsi məhv edilib. Onlar yaxşı olar ki, işğaldan azad edilmiş ərazilərə gələrək ermənilərin törətdiyi vəhşiliklərə şahidlik etsinlər",-deyə o əlavə edib.

Hikmət Hacıyevin sözlərinə görə, digər ən böyük problem minalardır. O qeyd edib ki, humanitar mina problemi bütün bəşəriyyətin üzləşdiyi problemdir. "Azərbaycan minalarla çirklənmiş ölkələr sırasında beşinci yerdədir. Bunu təəssüflə qeyd edirik",-deyə Hikmət Hacıyev əlavə edib. Hikmət Hacıyev bildirib ki, Birinci Qarabağ müharibəsində itkin düşən 4 minə yaxın azərbaycanlının taleyinə Ermənistan hələ də aydınlıq gətirməyib. Prezidentin köməkçisi qeyd edib ki, hazırda Cənubi Qafqaz regionunda sülh gündəliyi dayanır. "Azərbaycan Ermənistana sülh üçün 5 maddəlik baza prinsipi təklif edib",-deyə o xatırladıb.

**K. Təyyarqızı**

# PA-nın şöbə müdiri: "Siz sonrakı diaspor nəslini böyüdəcək insanlarsınız"

***"Vətən anlayışı, millətin taleyi anlayışı ortaya gələndə bizim diasporumuz dəmir yumruq kimi birləşə bilir və onların yumşaq gücü çox qüvvətlidir". SİA-nın məlumatına əsasən, bunu Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayının panel iclasında çıxış edərkən deyib.***



O bildirib ki, yeni nəsil diaspor nümayəndələrinin yetişdirilməsi məsələsi aktuallıq qazanır: "10-15 ildən sonra Azərbaycan diasporunun fəaliyyəti necə olacaq? Siz sonrakı diaspor nəslini böyüdəcək insanlarsınız. Bu haqda Prezident İlham Əliyev çıxışlarında danışıb. Yaşadığı ölkədən, danışdığı dildən, olduğu mühitdən asılı olmayaraq bir neçə xüsusiyyətlər var ki, onlar dəyişmir. Avropada fiziki olaraq Azərbaycanı görməyən, ancaq azərbaycanlı olan bir nəsil yetişir. Onlar azərbaycanlı olduqlarını heç zaman unutmasınlar, beyinlərindən heç zaman bu idea silinməsin".

F.Əliyeva qeyd edib ki, diasporumuzun akademik səviyyəsinin dərinləşdirilməsi bu gün aktual məsələdir: "Böyük mütəfəkkir Əli bəy Hüseynzadənin məqalələrindən birində çox maraqlı detal oxumuşdum. Qeyd edirdi ki, avropalıların mədəsində həzm olmaq istəmirsinizsə, onların beyinlərinin məhsullarını həzm edin. Yeni nəsil diasporumuz artıq mədədə həzm olunmayacaq, ancaq onlar özləri beyin məhsullarının yaradıcıları olmalıdırlar. Bu həm də Azərbaycan diasporunun hədəfidir. Davamlı işi yeni nəsil həyata keçirə bilər. Onlar artıq həmin ölkələrin bərabərhüquqlu vətəndaşları kimi işləməlidirlər. Akademik səviyyə o qədər dərin, nüfuz sahibi olmalıdır ki, onların sözü keçərli olsun, onları eşidən olsun".

**Kəmalə**

# Mehriban Nəsib: "Şuşada ilk Qurultayda iştirak etmək mənim üçün qürurvericidir"

***Dünya Azərbaycanlılarının qurultaylarında ilk dəfədir iştirak edirəm. Şuşada ilk Qurultayda iştirak etmək mənim üçün qürurvericidir və bundan çox xoşbəxtəm. Bu fikirləri AZƏRTAC-a açıqlamasında ABŞ-ın Nyu-York şəhərində yaşayan həmyerlimiz Mehriban Nəsib deyib.***



O qeyd edib ki, Şuşa şəhərində keçirilən tədbirdə müxtəlif ölkələrdən gəlmiş bir çox azərbaycanlı diaspor nümayəndəsi ilə tanış olub və bu, çox gözəl hadisədir. "Biz Vətən müharibəsindən əvvəl ABŞ-da fərqli istiqamətdə fəaliyyət göstərirdik. Müxtəlif nümayiş və etiraz aksiyaları keçirərək Ermənistanın Azərbaycan ərazilərinin 20 faizini işğal etdiyini beynəlxalq ictimaiyyətin, insanların diqqətinə çatdırırdıq. İkinci Qarabağ müharibəsindən sonra fəaliyyət istiqamətimiz dəyişdi. Biz sosial şəbəkələrdə artıq əvvəlkindən qat-qat fəal iş görürük. Vətən müharibəsindən sonra biz qalib olduğumuzu hər sahədə göstəririk. Prezident İlham Əliyev Qurultaydakı nitqində qeyd etdi ki, əgər bu şəhər həqiqətən ermənilərin olsaydı, onlar buranı dağıtmazdılar. "Bəli, bu gün Şuşada bir çox tikili dağıdılmış vəziyyətdədir. Füzuli, Ağdam tamamilə yerlə-yeksan edilib. Mən inanıram ki, bir neçə il sonra Qarabağımız yenidən ölkəmizin ən gözəl bölgələrindən biri olacaq", - deyə o əlavə edib.

# Cavanşir Quliyev: "Postmüharibə dövründə Azərbaycanın Qələbəsini dünyaya qəbul etdirməli, sülh ölkəsi olduğumuzu göstərməliyik"



Dünya Azərbaycanlılarının V Qurultayı şanlı Qələbədən sonra çox önəmli vaxtda keçirildi. Vətən müharibəsindəki Qələbədən əvvəlki qurultaylar başqa mövzulara həsr edilirdi, amma indi artıq yeni mərhələ başlayıb. Zəfərimizi dünyada qəbul etdirməliyik, çünki hələ də bir çox ölkələr, beynəlxalq təşkilatlar bizim Qələbəmizi qəbul etmək istəmirlər. Qurultay bu Qələbəni qəbul etdirmək yolunda görüləcək işlərin müəyyənləşdirilməsinə həsr olunub. Burada bəzi ideyalar ortaya çıxdı, təkliflər edildi. Biz postmüharibə dövrdə Azərbaycanın Qələbəsini dünyaya qəbul etdirməli, sülh ölkəsi olduğumuzu göstərməliyik.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Şimali Kipr Türk Respublikasının Yaxın Doğu Universitetinin professoru, bəstəkar Cavanşir Quliyev deyib. "Şuşa mənim uşaqlığımın şəhəridir, çünki məktəbdə oxuyarkən burada ailəliklə tez-tez olurduq. Bu ərazilər yarış yerlərdir, bu dağlarda vaxtilə çox gəzmişəm.

Zəfər hissi sənətkarların beynində, qəlbində müəyyən zaman keçməlidir ki, kök atsın, ideya yaransın. Bilirəm ki, bir çox tanıdığım sənətkarlar bu mövzu üzərində düşünürlər, işləyirlər. Mənim də bəzi planlarım var. Bir-iki əsər də artıq hazırdır, böyük əsərlər də olacaq", - deyə Cavanşir Quliyev qeyd edib.

# Elçin Bayramov: "Azərbaycan Prezidenti Zəfər Qurultayında çıxışı ilə diaspor qarşısında yeni hədəfləri müəyyənləşdirdi"

***Azərbaycan Prezidenti İlham Əliyev Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayında etdiyi çıxışı ilə diaspor qarşısında yeni hədəfləri müəyyənləşdirdi. Dünyada, o cümlədən Moldovada yaşayan soydaşlarımız dövlətimizin başçısının çıxışından ruhlanaraq qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirəcəklər. Bunu AZƏRTAC-a açıqlamasında Şuşada Zəfər Qurultayında iştirak edən Moldova Azərbaycanlıları Konqresinin sədri Elçin Bayramov söyləyib.***

Onun sözlərinə görə, bu gün dünyada yaşayan hər bir azərbaycanlı üzərinə düşən tarixi məsuliyyəti dərk edərək Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında çıx birləşib, dövlətimizin daha da inkişafı üçün biliyini, əməyini səmərəli istifadə etməlidir.

"Azərbaycan Prezidentinin Qurultayda çıxışında qeyd etdiyi kimi hər birimiz yeni reallıqları dünya ictimaiyyətinə çatdırmalıyıq. Yaşadığımız ölkələrin ictimaiyyətini Azərbaycan reallıqları haqqında daima məlumatlandırmalıyıq", - deyə diaspor rəhbəri əlavə edib.

Azərbaycan diasporunun Prezident İlham Əliyevlə fəxr etdiyini vurğulayan Elçin Bayramov deyib: "Biz dünya azərbaycanlılarının Prezidenti olan İlham Əliyevin etimadını doğrultmaq üçün bütün qüvvəmizi səfərbər etməliyik".



***Aprelin 22-də Quba şəhər Mədəniyyət Mərkəzində Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Nəsillərin görüşü: Uğurlar və perspektivlər..." mövzusunda zona konfransı təşkil olunub. SİA xəbər verir ki, konfrans Dövlət Himninin səslənməsi, respublikamızın ərazi bütövlüyü uğrunda həyatını qurban verən şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.***




# Qubada zona konfransı keçirilib

Konfransda Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev, Prezident Administrasiyasının məsul əməkdaşı Əli Pənahov, Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov, həmçinin şimal bölgəsindən olan əmək, müharibə və Silahlı Qüvvələr veteranları, 44 günlük Vətən müharibəsi qaziləri, tələbə və ziyalılar, Sərhəd Qoşunlarının, Müdafiə Nazirliyinin nümayəndələri iştirak ediblər.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov dövlətin şəhid ailələrinə, müharibə əlillərinə, veteran və qazilərə göstərdiyi diqqət və qayğıdan bəhs edib. Həssas kateqoriyadan olan vətəndaşlara dövlət qayğısı fonunda şəhid ailələrinə, müharibə əlillərinə, veteranlara cəmiyyətdə böyük ehtiram göstərildiyi vurğulanıb.



44 günlük Vətən müharibəsində veteranların, o cümlədən hər bir vətəndaşın Ali Baş Komandan ətrafında yumruq tək birləşdiyini bildirən Cəlil Xəlilov, bu gün də veteranların Prezident İlham Əliyev ətrafında sıx birləşməsinin zəruriliyini qeyd edib. Sədr müavini bildirib ki, son vaxtlar bəzi veteranların daşıdıqları statusdan sui-istifadəyə cəhd etməsi, dövlət qurumlarına təzyiq göstərməyə çalışması, əsassız tələb və iddialar səsləndirməsi müşahidə edilir və bu, təəssüf doğurur. Polkovnik qeyd edib ki, hər bir tələb və iddia qanuna əsaslanmalı, yalnız və yalnız hüquqi müstəvidə həll edilməlidir. Bu kimi neqativ halların cəmiyyətdə veteranlar haqqında mənfi fikirlərə yol aça biləcəyini söyləyən Cəlil Xəlilov, belə hallara qarşı birgə mübarizə aparmağın zəruriliyini qeyd edib: "Veteranlarımız sadəcə bu kimi neqativ hallara qarşı mübarizə aparmaqla kifayətlənməməli, həm də cəmiyyətdə vətənpərvərlik ruhunun gücləndirilməsi, 44 günlük Vətən müharibəsi qəhrəmanlarının tanıdılması, gənc və yeniyetmələr arasında hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi baxımından da fəal iş aparmalıdırlar. Müharibə dönəmində cəbhədə böyük qəhrəmanlıqlara imza atan gənclər respublikamızın sosial-iqtisadi həyatında, o cümlədən Qarabağda aparılan böyük yenidənqurma işlərində də fəal olmalı, ön cəbhədəki qəhrəmanlıqlarını arxa cəbhədə öz əməkləri ilə təkrarlamalıdırlar", - deyə Cəlil Xəlilov söyləyib.

Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən sosial layihələrdən, şəhid ailələrinə, müharibə əlillərinə, veteran və qazilərə göstərilən diqqət və qayğıdan bəhs edib.

Bildirilib ki, 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında böyük Qələbəyə, şanlı Zəfərə imza atdı. İşğalçı erməni ordusu darmadağın edilərək rüsvayçı məğlubiyyətə uğradıldı. Bununla da Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin edildi. Hər zaman şəhid ailələrinin, müharibə veteranlarının yanında olan dövlət başçısı post-müharibə dönəmində də Vətənin azadlığı uğrunda şəhid olanların ailələri, müharibə iştirakçıları ilə həmrəylik sərgilədi. Bu həmrəylik bu gün də davam edir. Şəhid ailələrinin, veteranların sosial problemlərinin həlli istiqamətində böyük layihələr həyata keçirilir. Bu baxımdan, Quba rayonunda da bir sıra mühüm işlər görülür. Buna nümunə olaraq Quba rayonunda Azərbaycan-Türkiyə qardaşlıq parkının, o cümlədən "Media şəhidləri" parkının salınmasını göstərmək olar.



Yaxın günlərdə şəhid ailələrinin həyətlərinin abadlaşdırılması, onların evlərinə gedən yolların asfaltlaşdırılması prosesinə başlanılacaq. Şəhid ailələrinin, veteranların problemlərinin həll edilməsi, onların sosial rifahının yüksəldilməsi bizim üçün prioritetdir və bu istiqamətdə bütün imkanlardan bundan sonra da maksimum istifadə olunacaq.



Konfransda çıxış edən Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev xalqımızın Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində tarixi uğura imza atdığını vurğulayıb.

Bildirilib ki, 44 günlük Vətən müharibəsi və bu müharibədə əldə edilən Qələbə sadəcə Azərbaycanın deyil, türk dünyasının ən şanlı qalibiyyətlərindən biridir. Azərbaycan Ordusu, Azərbaycan xalqı bu Zəfərlə 200 illik erməni işğalına layiqli cavab verdi. Azərbaycan öz tarixi torpaqlarını erməni faşizmindən azad etməklə ərazi bütövlüyünü təmin etdi. Tarixi və hüquqi ədalət şanlı Azərbaycan Ordusunun cəsarəti və rəşadəti nəticəsində təmin edildi.

"Bu gün Azərbaycanda şəhid ailələrinə, müharibə əlillərinə, veteran və qazilərə dövlət tərəfindən mütəmadi qayğı göstərildiyi, onların sosial rifahının yüksəldilməsinin dövlət siyasətimizin prioritet istiqamətlərindən bir olduğu hər kəsə məlumdur. Məlum kateqoriyadan olan vətəndaşlarımızın mənzil, avtomobil, sosial müavinətlərlə təmin edilməsi, çoxsaylı güzəştlərdən yararlanması faktı buna nümunədir. Lakin təəssüflə qeyd etməliyik ki, bu gün bəzi veteranlar, o cümlədən veteran adı daşıyan təşkilatlar əsassız iddia və tələblərlə çıxış edir, ictimai maraqlardan daha çox öz şəxsi maraqlarının müdafiəsinə çalışırlar. Təbii ki, bu kimi hallar cəmiyyətdə də narazılıq doğurur, veteran statusunun aliliyinə, müqəddəsliyinə kölgə salır. Hər bir veteran bu kimi arzuedilməz hallara qarşı mübarizə aparmalı, dövlətimizin şəhid ailələri, veteranlarla bağlı siyasətinə kimlərinsə kölgə salmasına imkan verməməlidir", - deyə Vüsal Quliyev bildirib.

Konfransda çıxış edən şəhid ailələrinin nümayəndələri, müharibə əlilləri, 44 günlük Vətən müharibəsi iştirakçıları, QHT təmsilçiləri dövlətin şəhid ailələri və veteranlara dəstəyini yüksək qiymətləndirdiklərini, hər zaman olduğu kimi, bundan sonra da milli maraqların keşiyində ayıq-sayıq dayanacaqlarını vurğulayıblar. Konfrans əsnasında şəhid ailələrinin nümayəndələri, o cümlədən veteranlar həm də onları düşündürən, narahat edən məqamlara toxunub, üzləşdikləri problemlərdən birgə həll yollarının müzakirəsinə qoşulublar. Şəhidlərin adlarının əbədiləşdirilməsi, onların göstərdiyi qəhrəmanlıqların təbliği istiqamətində də çoxsaylı təkliflər səsləndirilib.

Diskussiya formasında davam edən konfransda Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov şəhid analarının, müharibə veteranının suallarını cavablandırıb, onların müxtəlif məsələlərlə bağlı səsləndirdiyi təkliflər dinlənilib, ümumiləşdirmələr aparılıb.

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev konfransdan sonra şəhid ailələri və müharibə iştirakçılarının təmsil olunduqları QHT-lərin nümayəndələri ilə görüşüb.

# 23 Aprel Dünya Kitab və Müəlliflik Hüququ Günüdür

## *Əqli və maddi-mədəni oğurluqlarla, tarixi-coğrafi uydurmalarla özlərinə yalançı tarix formalaşdıran ermənilər*



23 Aprel Dünya Kitab və Müəlliflik Hüququ Günüdür. Bu barədə qərar 1995-ci ildə Parisdə UNESCO-nun Baş Konfransında qəbul edilmişdir. 1996-cı ildən etibarən isə kitaba və müəlliflərə hörmət əlaməti olaraq, bu gün bütün dünyada qeyd olunur. Bu gün dünya şöhrətli dramaturqlar Vilyam Şekspir, Migel de Servantes və yazıçı-tarixçi İnka Qarsilaso de la Veqanın şərəfinə Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü kimi qeyd edilir. Hər üç yazıçını onların ölüm günü - 23 aprel 1616-cı il tarixi birləşdirir. Azərbaycanda isə həmin gün 1997-ci ildən etibarən ənənəvi şəkildə qeyd edilir və müxtəlif tədbirlərlə müşayiət olunur. Belə tədbirlərin keçirilməsində məqsəd kitabların insan həyatındakı böyük əhəmiyyətini vurğulamaq, müəlliflik hüququnun mədəni irsin yaranmasında, qorunub-saxlanmasındakı rolunu göstərmək, davamlı iqtisadi inkişafda və informasiya cəmiyyətinin formalaşmasındakı əhəmiyyətini diqqətə çatdırmaqdır. Eyni zamanda, əqli mülkiyyətin yaradıcılarına olan hörmət və ehtiramı nümayiş etdirmək, diqqəti mədəni irsin və adət-ənənələrimizin qorunub-saxlanmasına yönəltməkdir.Qeyd edək ki müəllifik hüququ - elm, ədəbiyyat və incəsənət əsəri müəlliflərinin hüquqlarını ifadə edən hüquqi bir termindir. Əsərlərin yaradılması və istifadəsi üzrə münasibətləri tənzimləyən hüquqi normaların məcmusudur.

### AZƏRBAYCANIN ƏQLİ MÜLKİYYƏT SİSTEMİNİN BEYNƏLXALQ SƏVİYYƏYƏ YÜKSƏLMƏSİNƏ YOL AÇILDI

Azərbaycanın müəllif-hüquq sisteminin yaradıcısı Ümummilli Lider Heydər Əliyevdir. Məhz Onun uzaqgörənliyi sayəsində 1993-cü ildə mərkəzi icra hakimiyyəti statusunda Müəllif Hüquqları Agentliyi yaradıldı və 1996-cı ildə müstəqil Azərbaycanın ilk əqli mülkiyyət üzrə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanun qəbul olundu. Azərbaycanın əqli mülkiyyət sisteminin beynəlxalq səviyyəyə yüksəlməsinə yol açıldı. Ulu Öndər Heydər Əliyevin tövsiyələri əsasında Avropa məkanında, ilk dəfə olaraq, MHA tərəfindən "Azərbaycan folklor nümunələrinin qorunması haqqında" qanun layihəsi hazırlandı. 2002-ci ildə isə "İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında" Qanun qüvvəyə mindi.

Müasir dövrdə "ƏMH təminatı və piratçılığa qarşı mübarizə haqqında", "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" unikal qanunlardan, 100-ə qədər normativ-hüquqi sənədlərdən ibarət olan Azərbaycanın müəllif-hüquq bazası mövcuddur. Piratçılığa qarşı görülən tədbirlər nəticəsində, piratçılığın səviyyəsi müxtəlif sahələrdə nəzərə çarpacaq dərəcədə aşağı düşüb. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıqlarına əsasən, adıçəkilən qanunlarda müasir dəyişikliklər edilib və onlara əlavələr olunub. Bununla yanaşı, müəllif-hüquq qanunvericiliyi zənginləşib, 2004-cü ildə "Məlumat toplularının hüquqi qorunması haqqında" Qanun, 2012-ci ildə isə "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanun qəbul olunub. Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan və Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən davam etdirilən düşünülmüş siyasətinin nəticəsi olaraq, Azərbaycanın müəllif-hüquq sistemi beynəlxalq ekspertlərin rəyinə əsasən, MDB məkanında ən inkişaf etmiş sıralara daxil edilib və nümunəvi sistem kimi qəbul olunub. Prezident İlham Əliyev tərəfindən imzalanmış "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında bu sistemin özünəməxsus yeri vardır.

### ƏQLİ MÜLKİYYƏTİMİZİN TERRORÇULARI

Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində təkcə ərazilərimizin 20 faizi yox, minlərlə qiymətli kitab və qədim əlyazmalarımız məhv olmuş, tarixi və mədəni abidələrimiz dağıdılmış, işğal edilmiş ərazilərdə qeyri-qanuni aparılmış qazıntılar nəticəsində aşkar edilmiş tapıntılar ermənilər tərəfindən mənimsənilmişdir. Ermənilər bütün dövrlərdə Azərbaycana qarşı işğalçılıq siyasətini təkcə ərazi iddiaları ilə məhdudlaşdırmayıb, mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə göz dikiblər, onları oğurlayıb özününküləşdirməyə çalışıblar. Azərbaycanın mədəni irs nümunələrini erməni mülkiyyəti adı ilə tanıtmağa çalışaraq əqli mülkiyyətimizin terrorçusuna çevriliblər. Ermənilər öz ərazi iddialarını əsaslandırmaq üçün Azərbaycan torpaqlarının həqiqi sakinlərinə məxsus olan maddi və qeyri-maddi mədəni irsin mənimsənilməsi və erməniləşdirilməsi ilə bağlı müxtəlif yollardan istifadə ediblər. Əqli və maddi-mədəni oğurluqlarla, tarixi-coğrafi uydurmalarla, özlərinə yalançı tarix formalaşdırıblar. Erməni vandalizmi nəticəsində, Azərbaycan xalqının çoxəsrlik tarixini əks etdirən 700-dən artıq tarixi və mədəniyyət abidəsi, o cümlədən, 11 dünya əhəmiyyətli abidə dağıdılıb, qarət edilib və yandırılıb.

Azərbaycanın işğal altında olan ərazilərini xarabalığa çevirən ermənilər vəhşilik missiyalarını həyata keçiriblər. Artıq Azərbaycan 44 günlük Vətən müharibəsində Zəfər qazandı. İşğaldan azad olunmuş ərazilərdə məscidlər, mədrəsələr, körpülər, məbədlər nəinki dağıdılmış, eyni zamanda, bir çox hallarda təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq xalqımızın milli mənəvi dəyərləri təhqir edilmişdir. Erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri olan məscidlər, türbələr və digər inanc yerləridir ki, bu da erməni vandallığının göstəricisidir.

### "BÖYÜK ERMƏNİ MƏDƏNİYYƏTİNİN" DƏLİLLƏRİ VƏ MƏĞLUBİYYƏT

Ermənilər Azərbaycanın adət-ənənələrini, tarixi abidələrini, musiqini, musiqi alətlərini, mətbəxini və digər nümunələri öz adlarına çıxmağa çalışıblar. Bu məqsədlə, ermənilər hər bir yola, hətta cinayətə də əl atıblar. Xalqımızın qeyri-maddi mədəni irsinin, ədəbiyyat və incəsənətinin, xüsusən folklor nümunələrinin, hətta müəllif əsərlərinin ermənilər tərəfindən oğurlanması müəyyən tarixə malikdir. "Böyük Ermənistan" xülyası ilə yaşayanlar tərəfindən oğurlanmış xalqımıza məxsus təzahürlər də "böyük erməni mədəniyyətinin" dəlilləri kimi göstərilir.

Uzun illərdir Azərbaycan mədəniyyətinin ayrı-ayrı nümunələrini özününküləşdirməyə çalışan ermənilər bizə məxsus milli yeməkləri də öz adına çıxarır. Onların çap etdirdikləri kitablarda belə göstərilən yeməklərin demək olar ki, əksəriyyəti Azərbaycan mətbəxinə məxsusdur. Müxtəlif dillərdə nəşr olunan kitablar vasitəsilə Ermənistan kulinariyasının təbliğatı aparılsa da saxtakarlıqları ifşa olunur. Azərbaycan mətbəxinin ermənilər tərəfindən mənimsənməsi 1940-cı illərdən başlayıb. Ermənilər bunu mətbəximiz haqqında geniş məlumatlar toplayaraq reallaşdırıblar. Onlar müxtəlif dillərdə kitablar çap edərək bizə məxsus milli yeməklərin onlara məxsus olduğuna inandırmağa çalışıblar.

2014-cü ildə Azərbaycan Ermənistanın çar Tiqranın dövründən başlayaraq əsrlər boyu başqa xalqların nailiyyətlərini mənimsəyərək və onları qədim ermənilərin ixtiraları kimi qələmə verərək UNESCO-da rəsmiləşdirmək cəhdinin qarşısını almışdı. Xatırladaq ki, o vaxt Ermənistan "lavaşın ənənəvi erməni çörəyi" kimi Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs Siyahısına salınması üçün UNESCO-ya müraciət etmişdi. Lakin Azərbaycan nümayəndə heyəti əsaslandırılmış şəkildə etirazını bildirərək komissiyaya izah etdi ki, lavaşı bir sıra səbəblərdən heç cür "erməni çörəyi" adlandırmaq olmaz. İki ildən sonra, 2016-cı ildə isə Efiopiyanın paytaxtında UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin qorunub saxlanması üzrə 11-ci Hökumətlərarası Komitəsinin iclasında bu məsələyə nöqtə qoyuldu və Azərbaycan, İran, Qazaxıstan, Qırğızıstan və Türkiyənin lavaş, katırma, jupka, yufka adlanan kökənin Reprezentativ Siyahıya daxil edilməsi barədə birgə müraciəti bəyənildi. Əlbəttə ki, kifayət qədər belə dəlillər var ki, erməni saxtakarlığının qarşısı alınmışdır. Bütün bunlardan dərs almayan ermənilər 44 günlük Vətən müharibəsində aldıqları dərsi heç vaxt unutmayacaqlar.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ermənilərin Rusiyadakı "soyqırımı" sərgüzəştləri: BİABIR OLDULAR!

### Yaxud, Qərb-Rusiya və ya Rusiya-Ukrayna qarşıdurması "əzabkeş" məxluqların qondarma "genosid" planlarını necə alt-üst etdi?

Hər il ənənəvi "məzlumkeşlik" və "əzabkeşlik" xarakterli "24 aprel ermənilərin soyqırımı günü" qondarma adı altında özlərini zorla dünya ictimaiyyətinə sırıyan, əsas məqsədlərində isə nə qədər türkofob olduqlarını göstərən ermənilər bu dəfə Rusiyada biabır olublar. Məsələ ondadır ki, "Genosidə-yox" adı altında sərgi keçirəcəkləri yönündə bir aya yaxındır ki, PR kampaniyası aparan Rusiya erməniləri çoxsaylı anonslar verməklərinə, eləcə də resurslar xərclədiklərinə rəğmən, çıxdaş olunublar. SİA-ya daxil olan məlumata görə, dırnaqarası sərgi 22 aprel-8 may tarixlərində Sankt-Peterburqin "Rusiya-mənim tariximin" tarixi parkında keçiriləcəkmiş. Və məhz bu fürsətdən istifadə etməyə cəhd göstərən Rusiya erməniləri özlərini bu dəfə Rusiyanın tarixi aspektlərində nümayiş etdirmək istəyiblər və həmin məsələdə ən çox canfəşanlıq göstərən Sankt-Peterburqun "ARMA" erməni gənclər assosiasiyası, erməni gənclərinin Don ittifaqı olub. Onlar "Rusiya-mənim tariximin" tarixi parkının keçirəcəyi tədbirdə özlərinin ayrıca pavilyonlarını quracaqmışlar. Və məsələ ondadır ki, həmin istiqamətdə işlər aparılırdı da, hətta tarixi parkın sərgisində iştirak etmələri ilə bağlı qəti qərar da mövcud idi. Amma...




Bu günlərdə məlum olub ki, "əzabkeş" məxluqların "ah-vay" mərasimlərinin keçirilməsi mümkün deyil.

Amma sən saydığını say, gör "matuşka Rossiya" nə sayır! Bu günlərdə məlum olub ki, "əzabkeş" məxluqların "ah-vay" mərasimlərinin keçirilməsi mümkün deyil və "Rusiya-mənim tariximin" parkının rəhbərliyi açılışına bir gün qalmış qondarma "24 aprel erməni soyqırımı" sərgisinin ləğv olunduğunu qarşı tərəfə bildirib. Nəticədə, Rusiyadakı erməni diasporunun gənclər qolu sözün əsl mənasında qurşaqaltı zərbəyə məruz qalıb. Hətta dünənə qədər rusların hər yerlərini dəsmallayan ermənilər birdən-birə əsl, real tərəflərini göstərməklə sosial şəbəkələrdə anti-Rusiya istiqamətində qaynamağa başladılar. Erməni blogerləri Rusiyanın ünvanına ən təhqiramiz ifadələri işlətməkdən belə çəkinmirlər.

### "ARMA" erməni təşkilatı: "Tamamilə razılaşdırılmış sərgi bizdən asılı olmayan səbəblərə görə son anda ləğv olundu"

Eyni zamanda, "sərginin" təşkilatçılarından biri - Erməni regional gənclər assosiasiyası ("ARMA") vəziyyətin gərginləşdiyini anladıqdan sonra baş verənlərin onlardan asılı olmadığını bildirib.

"2022-ci ilin yanvarından biz Sankt-Peterburqun erməni icması və şəhər əhalisi üçün mühüm olan "Genosidə-yox!" multimedia layihəsi üzərində fəal işlərə başladıq. Biz sərgi üçün gündəlik çalışırdıq və az qüvvə, resurs sərf etməmişdik. Açılış tədbiri üçün KİV-ləri və nüfuzlu qonaqları dəvət etmişdik. Kinobaxış və ekskursiya üçün sərgiyə azad girişin olması üçün razılıq əldə etmişdik. Bizim üçün bu layihə həqiqətən də çox əhəmiyyətli idi. Lakin bizim gözləmədiyimiz hadisə baş verdi. Tamamilə razılaşdırılmış sərgi bizdən asılı olmayan səbəblərə görə son anda ləğv olundu", deyə erməni təşkilatı bildirib.

### Rusiya tərəfinin ermənilərin "sərgilərinin" keçirilməməsi ilə bağlı cavabı bəlli olub

İndi isə gəlin Sankt-Peterburqun "Rusiya-mənim tariximin" parkının rəhbərliyinin sərginin ləğvi ilə bağlı açıqlamasına diqqət yetirək. Həmin açıqlamanı mövzu ətrafında bəhs edən rusdilli caliber saytı yayımlayıb. Parkın rəhbərliyi bildirib ki, onlara aprelin 27-dən başlayaraq bütün ölkə üzrə NATO-ya qarşı tədbirlər keçiriləcək və alyansın "cinayətlərindən" (dırnaqlar bizimdir-R.R.) bəhs ediləcək sərgilər göstəriləcək.

Üstəlik, ermənilərin "Genosidə-yox" sərgisinin baş tutmamasına daha bir səbəb Sankt-Peterburqun şəhər günü və I Pyotrun 350 illiyinin qeyd olunmasıdır. Artıq bu tədbirlərlə bağlı anonslar da verilib. Beləliklə, erməni diasporunun "əzabkeşlik" adlı "tərənnümü" iflasa uğrayıb və onların XX-XXI əsrlərə aid həyasız mifləri əslində Rusiya-Ukrayna, yaxud Qərb-Rusiya qarşıdurması altarında qurbanlıq qoyun kimi kəsilib. Bu isə həm də belə bir nəticəyə gəlməyə əsas verir ki, artıq ruslar da ermənilərin qondarma soyrqımı "ah-vaylarından" təngə gəliblər və planlarını, sözün əsl mənasında, alt-üst ediblər.

***Rövşən RƏSULOV***

TƏHLİL
www.FOTOFAKT.az

# Ermənilərin saxta “24 aprel” uydurması və...

***Tarixin qaranlıq, saxtalaşdırılmış səhifələrinə bir daha ötəri də olsa nəzər salaq. Ermənilərin 1890-cı ildən etibarən başlayan üsyanları 1915-ci ildə Osmanlı hakimiyyətinin radikal qərarlar qəbul etməsinə səbəb olub. Elə saxta soyqırım iddiaları da həmin dövrdən ortaya atılıb: Türkiyədən torpaq qopartmaq və "Böyük hayastan"ın bir hissəsini qurmaq... İlk üsyan 1890-cı ildə Ərzurumda gerçəkləşib, sonra Van, Sason, Adanaya keçib. 1905-ci ildə ermənilər (əslində, haylar) Sultana sui-qəsd etmək istəsələr də bu, uğursuzluqla nəticələnib. Bölgədə təşkilatlanan erməni komitələri mülki əhaliyə qarşı da xüsusi amansızlıq nümayiş etdiriblər.***

Təhlil

### Uydurma hadisəyə soyqırımı deyir, sübutu olana isə...

Məlum olduğu kimi, Fransa Prezidenti Emmanuel Makron bir neçə gün əvvəl Ukraynada baş verənlərlə bağlı soyqırımı ifadəsini işlətməkdən imtina edib. Ötən gün o, Ukrayna Prezidenti Volodimir Zelenskiyə zəng edərək Ukraynada dinc əhaliyə qarşı törədilən qətliamları niyə soyqırımı adlandırmadığını izah edib. Fransa Prezidentinin sözlərinə görə, ”soyqırımı” terminini siyasətçilər deyil, hüquqşünaslar qiymətləndirə bilər.

Ancaq bir məqamı da vurğulayaq ki, qondarma erməni soyqırımını ilk tanıyan dövlətlərdən olan Fransa Prezidentinin bu açıqlaması təəccüb doğurur. Çünki dünənə qədər həm Azərbaycan, həm də Türkiyə Prezidentləri tərəfindən sözügedən məsələ dəfələrlə gündəmə gətirilib. Prezident İlham Əliyev Avropa ölkələrinin rəhbərləri ilə keçirdiyi görüşlərdə qondarma erməni soyqırımının tanınmasının tarixi saxtalaşdırmaq olduğunu açıqlayıb, tarixin tarixçilər tərəfindən araşdırılmalı olduğunu qətiyyətlə bildirib.Ancaq Fransa prezidentinin sonuncu açıqlaması isə bir daha ikili standartlardan xəbər verir. O zaman sual yaranır: Necə olur ki, yüz il əvvəl baş verdiyi iddia olunan hadisəyə tarixçi, hüquqşünas deyil, dövlət səviyyəsində qiymət verilir, siyasətçilər tərəfindən soyqırımı kimi tanınır, Ukraynada olanlarla bağlı isə hüquqşünas rəyi gözləyirlər?..

Göründüyü kimi, Makron utanmadan, həyasızcasına Fransa adından, Amerika adından Türkiyədə olmayan, tarixin bu dövründə məchul, uydurma hadisəyə soyqırımı deyə bilir, amma bu gün televiziyada göstərilən, sübutu olan hadisələrə soyqırımı deyə bilmirsən. Bu ikili standartın əsas göstəricisi deyilmi?Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Arzu Nağıyevin sözlərinə görə, bu, Xocalı faciəsi, Azərbaycan vətəndaşlarına qarşı törədilən digər soyqırımı tanımayan Fransanın ikili standartlarının təzahürüdür: ”Fransada Prezident seçkiləri getdiyinə görə Makron heç vaxt öz siyasi karyerasına görə ciddi bir söz deməyəcəkdi, bu məlum məsələdir. İkili standart ondan ibarətdir ki, Xocalıda, Azərbaycan vətəndaşlarına qarşı törədilən digər soyqırımı Fransa heç vaxt tanımayıb. Sadəcə olaraq, ermənilərlə diaspora səviyyəsində ciddi əlaqələri olduğuna görə, digər istiqamətlərdə apardıqları siyasətə görə, onlar qondarma erməni soyqırımını məhz siyasi probleme çeviriblər. Təbii ki, bunların hamısı araşdırılmalıdır, tarixçilər, hüquqşünaslar öz sözünü deməlidir. Qətliam nədir, soyqırımı nədir, bir millətin başqa bir millətə qarşı törətdiyi hadisələr dəyərləndirilməlidir”.Millət vəkili bildirib ki, Fransa Prezidenti məhz öz karyerasını qorumaq üçün belə bir açıqlama verib: ”ABŞ Prezidenti Bayden Ukraynada baş verən hadisələri soyqırımı adlandırıb. Onların da öz məramı, məqsədi var ki, Rusiyaya qarşı daha ciddi ittihamlarla çıxış etsinlər. Fransa Prezidenti də bu gün özünün siyasi karyerasını qorumaq üçün məhz belə açıqlamalar verir. Hər iki variantda Azərbaycana qarşı ikili standart, ikili yanaşma daim mövcud olub və olmaqdadır. Bunun da qarşısını almaq üçün, çox şükürlər olsun ki, aparılan xarici siyasət, artıq istər arxivlərin açılması istiqamətində, istərsə də beynəlxalq səviyyədə hüquqşünasların qiymətləri - hamısı öz sözünü deməlidir və deyəcək də”.




### Qəddar və amansız erməni faşizmi cəzasız qalmamalıdır!

Azərbaycan xalqının tarixində ən müdhiş faciə olan Xocalı faciəsi bəşəriyyətə isə bəşəriyyətə qarşı ən amansız cinayətlərdəndir. 30 il əvvəl millətçi-təcavüzkar Ermənistan dövləti himayədarlarının dəstəyi ilə Azərbaycanda azərbaycanlısız ikinci erməni dövləti yaratmaq üçün törətmişdir. Ötən illərdə bu qətliamı törədənlərin cəzasız qalması xalqımızı faciənin özü qədər ağrıtmış, faciə qurbanlarının incik ruhlarını həmişə sonsuz hüznvə dərin kədərlə anmışıq.2020-ci ilin payızında xalqımızın Qarabağda apardığı müqəddəs Vətən müharibəsində erməni işğalçılarının darmadağın edilərək torpaqlarımızdan qovulması, ərazilərimizin 30 illik düşmən tapdağından azad edilməsi ilə şəhidlərimizin, eləcə də Xocalı qurbanlarının intiqamı da alınmış, nəhayət, onların narahat ruhları rahatlıq tapmışdır. Artıq bu il biz Xacalı soyqırımında həyatlarını itirmiş şəhidlərimizin xatirəsini təkcə hüzn və kədərlə deyil, həm də Qarabağda qazandığımız tarixi zəfərdən, soydaşlarımızı günühsız qətlə yetirənlərdən, şəhər və kəndlərimizi viran qoyanlara verdiyimiz cəzadan doğan yüksək əhvalla anırıq.Lakin onu da yaddan çıxarmırıq ki, Xocalı faciəsinin təşkilatçıları və icraçıları hələ adbaad ədalət mühakiməsinə çıxarılmamışdır. Xocal soyqırımı bəşəri cinayət olduğu kimi, həm də bəşəriyyət tarixindəki belə kütləvi cinayətlərin davamıdır. Nə qədər ki, belə qırğınları törədilənlər axıradək cəzalandırılmayıb, bu cinayətlərin kökü kəsilməyib cəlladlar günahsız insanların qanını axıdacaq.

Təkcə II Dünya müharibəsindən sonra bütün dünyanın 151 yerində 231 silahlı konflikt baş verib ki, bunların da yarıdan çoxu 1990-cı ildən-- soyuq müharibə qurtarandan sonrakı ən yaxın tarixi dövrə təsadüf edir. Amma bütün müharibələrin içində öz miqyası, qəddarlığı, insanlığa sığmayan əməlləri ilə fərqlənən elə cinayət aktları vardır ki, onlara heç cür haqq qazandırmaq mümkün olmayacaq. Təkcə Azərbaycan tarixinin deyil, bütün bəşər tarixinin ən dəhşətli hadisələrindən biri olan Xocalı qətliamı məhz həmin cinayət aktlarından biridir.1988-ci ildə Ermənistanda yaşayan 250 min azərbaycanlının öz evlərindən və torpaqlarından qovulması ilə Cənubi Qafqazda etnik təmizləmə başladı. Ermənistanda yerləşən 185 Azərbaycan kəndində yaşayan 250 mindən çox həmvətənlərimiz öz tarixi torpaqlarından qovuldu, onlara məxsus 31 min yaşayış evi, 165 kolxoz və sovxoz, çox sayda mal qara və bütün əmlakları qarət olundu. Bu əməliyyatlarda 225 nəfər öldürüldü, 1154 nəfər yaralandı. Yüzlərlə soydaşlarımız fiziki işgəncələrə məruz qaldılar və şikəst oldular.

Az sonra erməni hərbi birləşmələrinin Azərbaycan ərazisinə təcavüzü Dağlıq Qarabağ ərazisinin və onun ətrafındakı daha 7 rayonun işğalı ilə nəticələndi. Qarabağ müharibəsinin ən faciəli səhifəsi 7 min əhalisi olan Xocalı şəhərinin yer üzündən tamamilə silinməsi oldu. 1992-ci ilin fevralın 25-dən 26-a keçən gecə erməni quldurlar bir neçə həftə öncədən mühasirəyə alınmış Xocalı şəhərinə hücum etdilər. Şaxtalı qış gecəsində qaçıb canını qurtarmağa çalışan dinc sakinlər təqib edilərək yollarda və meşələrdə güllələnərən edildilər. Şəhər tamamilə yandırılıb məhv edildi. Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi. 76-sı uşaq olmaqla, 487 nəfər yaralandı, 1275 nəfər əsir götürüldü. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil.




Amansızlığına görə dünya tarixində törədilmiş ən qəddar cinayətləri belə üstələyən bu soyqırımı aktı təkcə Azərbaycan türklərinə qarşı deyil, bütövlükdə insanlığa, bəşəriyyətə, beynəlxalq sülhə qarşı törədilmiş ən ağır cinayət idi. Xocalı faciəsinə qədər Qarabağda baş verən bütün olaylar bu faciənin məqsədli şəkildə həyata keçirilən etnik təmizləmə siyasətinin tərkib hissəsi olduğuna heç bir şübhə yeri qoymur.

Xocalının mühasirəyə alınaraq mülki şəxslərin şəhəri tərk etməsinə imkan verilməməsi ermənilərin əsl niyyətini açıq şəkildə ortaya çıxarır. Öldürdükləri uşaqların, qocaların, qadınların cəsədlərini tanınmaz hala salmış erməni separatçıları başər tarixində ermənilik adına əbədi şərəfsizlik gətirən soyqırımı aktına imza atdılar.Erməni millətçiliyinin və separatizminin baş ideoloqu, körpə balaların qatili Zori Balayanın Xocalı hadisələrindən 4 il sonra yazdığı "Ruhumuzun dirilməsi" kitabını oxuyarkən bir daha bunun şahidi olursan.Ermənistanın tanınmış və bədnam ictimai fikir liderlərindən biri sayılan, keçən ilin payızında yenilməz saydığı Ermənistan ordusunun məhv edilməsindən sonra gorbagor olmuş müəllif öz kitabında yazıb: "Biz Xaçaturla uşaqların saxlandığı zirzəmiyə enən vaxt, əsgərlərimiz artıq onlardan birini ovuclarından pəncərə çərçivəsinə mıxlamışdılar. Uşağın səs-küyünü azaltmaq üçün Xaçatur onun ağzına öldürdüyümüz anasının kəsilmiş döşünü soxdu. Sonra mən onun başının, döşünün və qarnının dərisini soydum. O, 7 dəqiqə sonra qan itirməsindən öldü. Birinci ixtisasıma görə həkim olduğum üçün humanistəm və ona görə də uşağın başına gətirdiklərimizdən sevinc duymadım. Lakin qəlbim şadlanırdı. Xaçatur uşağın bədənini hissələrə böldü və itlərə atdı. Axşam biz eyni hərəkətləri üç azərbaycanlı uşağı ilə etdik. Mən erməni, vətənpərvər və vətəndaş kimi borcumu yerinə yetirdim".

Bu, XXI əsrdə erməni faşistinin özü tərəfindən öz qələmi ilə yaradılmış mükəmməl obrazı, avtoportretidir! Qarabağın işğalı zamanı Zori Balayanın sabiq Ermənistan prezidenti Serj Sərkisyanla birlikdə hərbi geyimli fotoları da onların birlikdə törətdiyi cinayət əməllərinin sübutudur. Bu ölkənin həkim-yazıçısı da, prezidenti də Xocalı soyqırımı və bütövlükdə Qarabağın işğalı üzərində "erməni millətinin qəhrəmanlarına" çevriliblər. Lakin tarixi həqiqətlər bunun qəhrəmanlıq deyil, növbəti xəyanət, bəşəriyyətə qarşı cinayət olduğunu sübut edir. 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Xocalı hadisələrinin soyqırımı elan olunması xüsusi əhəmiyyətə malik oldu. Ümummilli lider Heydər Əliyevin vurğuladığı kimi, "bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə başər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir".Prezident Heydər Əliyev 1998-ci ildə imzalanmış "Azərbaycanlıların soyqırımı haqqında" fərmanda soydaşlarımıza qarşı törədilmiş kütləvi qırğınların soyqırımı xarakteri daşıması, azərbaycanlılara qarşı aparılmış etnik təmizləmə siyasətinin aparılması açıq şəkildə ifadə olunmuşdur. Həmin fərmana uyğun olaraq, 31 mart günü son yüz ildən artıq müddətdə davam edən qırğınların qurbanı olmuş soydaşlarımızın xatirəsinə ehtiram əlaməti olaraq "Azərbaycanlıların soyqırımı günü" elan edilmişdir.




Bu gün Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması prosesində Xocalı soyqırımının tanıdılması xüsusi yer tutur. Dövlət başçısı İlham Əliyev çıxışlarında dəfələrlə Xocalı faciəsinə toxunaraq, bu hadisəni törədənlərin əsl niyyətlərini, təkcə azərbaycanlılara qarşı deyil, bəşəriyyətə qarşı törədilmiş ağır həmin cinayət aktının mahiyyətini açıq şəkildə ifadə etmişdir. Prezident İlham Əliyev Quba Soyqırımı Memorial Kompleksinin açılışında deyib: "Xocalı soyqırımı dünyanın gözü qabağında baş vermişdir. Yəni biz bunu "erməni soyqırımı" mifi kimi heç bir əsası olmayan mifologiya əsasında deyil, real faktlar əsasında görürük. Videomateriallar, fotoşəkillər, canlı şahidlərin ifadələri - bütün bunlar həqiqətdir və reallıqdır".Bu faciənin geniş miqyasda tanıdılması isə hər bir azərbaycanlının müqəddəs borcudur. Heydər Əliyev Fondunun vitse-prezidenti, Dialoq və Əməkdaşlıq Uğrunda İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən etibarən uğurla həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası artıq öz bəhrələrini verməkdədir. Kampaniya çərçivəsində dünyanın bir çox ölkəsində Xocalı faciəsinə həsr olunmuş tədbirlərin keçirilməsi əsl həqiqətlərin, Ermənistan tərəfindən ölkəmizə qarşı yürüdülən təcavüzkar siyasətin mahiyyətinin beynəlxalq ictimaiyyətə çatdırılmasında əhəmiyyətli rol oynamaqdadır.

"Xocalıya ədalət!" kampaniyasının ən uğurlu nəticəsi bu faciənin Pakistan, Meksika, Peru, Çexiya, Kolumbiya, Bosniya və Herseqovina kimi dövlətlərin parlamentləri, ABŞ-ın bir sıra ştatlarının rəsmi qurumları, eləcə də bir çox beynəlxalq təşkilatlar tərəfindən soyqırımı aktı kimi tanınması olmuşdur.Bu gün Azərbaycanın həyatında isə yeni bir mərhələ-- azad olunmuş ərazilərin bərpası mərhələsi başlayır. Talanlara və qeyri-qanuni istismara məruz qalmış Qarabağ torpaqlarımızda artıq abadlıq-quruculuq işlərinə başlanıb. Lakin Qarabağın azad olunması nə Ermənistanın, nə də onun adından 30 il torpaqlarımızı işğal altında saxlamış, soydaşlarımızı həyatından və bütün hüquqlarından məhrum etmiş Levon Ter-Petrosyan, Robert Koçaryan, Serj Sarkisyan və digər cinayətkarların məsuliyyətdən qaça biləcəyi anlamına gəlmir.Ancaq 44 günlük İkinci vətən Müharibəsi bir daha qondarma "24 aprel erməni soyqırımı"nı, iyrənc yalanlarına qarşı ələ bir dərs verdi ki.Ancaq həyasızlıq, faşistlilik, vandallıq, barbarlıq.... dahi rus şairi A.S.Puşkin demişkən: "Sən göləsən, sən qorxaqsan". Ayaq tutub "yeri(dilən)yən" yalan..."Soyqırımı" onların alver predmetinə çevrilib". Göründüyü kimi, ermənilərin iç üzü açıldıqca, onların saxta "göz yaşları"na inanmayanların sayı da artmaqdadır. Bütün dünya bilir ki, qondarma erməni soyqırımı İslama qarşı yönəlmiş siyasi maraqlardır və tarixi həqiqətdən uzaqdır və 24 aprel məsələsini ona görə "soyqırımı" günü erməniler tərəfindən qeyd edilsə də, aparılan tədqiqatlarda da ermənilərin uydurmalarının tam əsassızdır.

Və biz ikinci ildir ki, qalib dövlət, qalib xalq kimi bu soyqırımını anırıq. Cavablarını aldılar. Şəhidlərin qanı yerdə qalmadı. Yəni qisas alındı. Ancaq hələ də o soyqırımının törədilməsində rəhbər olmuş, komandir olmuş hərbi qatillər, canilər, cinayətkarlar cəzasızdırlar. Koçaryan, Sarkisyan, Balasanyan və Artunuyan kimi canilər hələ də cəzasız qalıblar. Biz əminik ki, onlar Azərbaycan hüquqları qarşısında cavab verəcəklər və Azərbaycan qanunları qarşısında cəzalanacaqlar.

**RƏFİQƏ HÜSEYNOVA**



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# 50 MİLYONLUQ ŞUŞAMIZ!

Nəhayət! Şuşamızda 50 milyonluq dünya Azərbaycanlılarını bir araya gətirən möhtəşəm Qurultay öz işinə başlayıb və bu gün Şuşamızda 50 milyon soydaşlarımızın ürəkləri fəxrlə, qürurla döyünməkdədir. Quzeydən Güneyə qədər Yer kürəsini bürüyən bütün milli heysiyyatlı insanlarımız Onun - Müzəffər Liderimizin şüarını deyirlər - QARABAĞ AZƏRBAYCANDIR!

Və əlbəttə ki, biz Liderimizin qurultayın açılışı əsnasındakı önəmli mesajlarını da diqqətlə izləyir və hər bir cümləsinin mahiyyətini, tarixi önəmini dərk edirik. Təkcə bu ifadələrdə daha hansı fəxarət, qürur, yüksək ruh hissləri yoxdur ki?

"Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər Qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, Dünya Azərbaycanlıları toplaşır, Qurultay keçirir və ümumiyyətlə Zəfər adı xalqımıza çox yaraşır".

Bəli, bu tarixi Zəfərimizin tarixi Qurultayıdır və ilk növbədə 200 ildən sonra yaşanan reallığın, Dünya Azərbaycanlılarını toplayan gücün, qüdrətin bariz təcəssümüdür. Bu, Azərbaycanlıların öz torpağına sahib çıxmasının, müqəddəs Vətən torpaqlarının bir daha və əsla (!) yağı tapdağı altına atılmayacağının sübutudur! Bu, millətin, soyun səsidir!

Məhz bundan sonra dünyanın müxtəlif ölkələrindən Şuşaya axışıb gələn və vahid yumruq kimi birləşən millətimizin nümayəndələri görün yenidən həmin ölkələrə geri döndükdən sonra öz gözləri ilə gördükləri həqiqətləri beynəlxalq aləmə necə çatdıracaqlar. Çünki gözlə görülən reallıq başqa olur, təbii olur və Şuşaya qədər işğaldan azad edilmiş ərazilərimizdən keçən, Zəfər Yolunu qət edən qurultay iştirakçıları bu yol boyunca 30 ilə yaxın işğalda qalmış ərazilərimizdəki dağıntıları, erməni vandallıqlarını seyr etdilər, şahidlik etdilər. O cümlədən, aparılan quruculuq, bərpa işlərini də müşahidə edərək həmin gerçəklikləri olduğu kimi dünyaya bəyan edəcəklər.

Bu Qurultay həm də daha bir anonsu verir - hazırda Şuşadan, Cıdır Düzü zirvəsindən bu şəhərin dumanları altındakı Xankəndimiz də görünür və Dünya Azərbaycanlılarının Zəfər şüarları bu qədim şəhərimizə də gedib-çatır. Xankəndinin də ürəyi çırpınır ki, onun əsl sahibləri yetişsinlər və onu bağırlarına bassınlar. İnanın ki, çox qısa müddətdə bu da olacaq. Hətta Allah deyən olsun, növbəti Qurultay Xankəndidə də keçirilə bilər və buna hər birimiz qətiyyətlə inanırıq və bilirik ki, belə də olacaq. Əlbəttə ki, belə mötəbər hisslər qəlbimizi genişləndirir və inamımızı daha da artırır. Bu inamımız isə hətta Xankəndidən Zəngəzura, oradan İrəvana qədər yol alır!

***Bu gün terror kəlməsini işlədərkən qeyri-ixtiyari olaraq "erməni" sözönünü də işlətməli olursan. Reallıq budur ki, ermənilər artıq bu sözü özəlləşdiriblər, özününküləşdiriblər. Bu da səbəbsiz deyil, dünyada baş verən ən səs-küylü terror hadisələrinin arxasından ermənilər, yaxud erməni təşkilatları çıxıb. Bəs ermənilər niyə bu yolu, daha doğrusu yolsuzluq, dinsizlik, imansızlıq, ədalətsizlik və nəhayət şərəfsizlik yolunu tutublar? Bu da səbəbsiz deyil, daha doğrusu bəhanələrlə dolu "səbəblər"dir. Ermənilərin Qafqaza köçürüldüyü, azərbaycanlı-türk millətinin başıma bəla kimi gətirilmiş ermənilər artıq 200 ildən artıqdır ki, bizim onlara etdiyimiz yaxşılıqların müqabilində türkün düşməninə, qatilinə çevriliblər...***

# Terrorun erməni üzü və izi




## Azərbaycanlılara qarşı erməni terrorunun tarixinə qısa bir nəzər

1992-ci il yanvarın 28-də Şuşa şəhəri yaxınlığında Ağdam-Şuşa marşrutu ilə sərnişin daşıyan mülki helikopter erməni terrorçuları tərəfindən vurulub, əksəriyyəti qadın və uşaq olan 41 nəfər sərnişin və 3 ekipaj üzvü həlak olub;

1994-cü il fevralın 1-də Bakıda Dəmir Yol Vağzalında Kislovodsk-Bakı sərnişin qatarında törədilən terror aktları nəticəsində 3 nəfər ölüb, 20 nəfər yaralanıb;

1994-cü il fevralın 9-da Xudat stansiyası yaxınlığında ehtiyat yolda dayanan yük vaqonu partladılıb;

1994-cü il martın 19-da Bakı metrosunun "20 Yanvar" stansiyasında elektrik qatarında törədilmiş terror aktı nəticəsində 14 nəfər ölüb, 49 nəfər müxtəlif dərəcəli bədən xəsarəti alıb;




1994-cü il martın 17-də Xankəndi şəhəri yaxınlığında erməni terrorçuları tərəfindən İran Hərbi Hava Qüvvələrinə məxsus "C130 Herkules" tipli təyyarənin vurulması nəticəsində İslam Respublikasının Moskvadakı səfirliyinin əməkdaşları, ailə üzvləri və ekipaj ölüb. Onda səfirlikdən bildirilmişdi ki, hadisə nəticəsində təyyarədə olan bütün şəxslər - daha dəqiqi 9-u uşaq olmaqla, 19 sərnişin və 13 ekipaj üzvü həlak olub.

1994-cü il iyulun 3-də Bakı metrosunun "28 May" - "Gənclik" stansiyaları arasında elektrik qatarında törədilmiş partlayış nəticəsində 13 nəfər həlak olub, 42 nəfər müxtəlif dərəcəli bədən xəsarəti alıb. Onlar bu kimi terror əməllərini xaricdə də davam etdiriblər.

1992-ci il yanvarın 8-də erməni terrorçuları Rusiyanın Krasnovodsk şəhərindən Bakıya sərnişin daşıyan "Sovetskaya Kalmıkiya" bərəsinin partladılması nəticəsində 25 nəfər ölüb, 88 nəfər isə yaralanıb. Və...

2009-cu ildə Azərbaycan Dövlət Neft Akademiyasında (ADNA) törədilən terror aktı erməni terrorizminin qaniçən, qəddar simasının təzahürlərindən biridir. Günahsız insanların, gənclərin Ermənistanın xüsusi xidmət orqanları ilə işbirliyində olduğu ehtimal edilən Mardin Qumaşyan tərəfindən ələ alınmış terrorçu tərəfindən qətlə yetirilməsi tarix boyu erməni faşizminin azərbaycanlılara qarşı həyata keçirdikləri kütləvi qətliamları, soyqırım aktlarını xatırladır. Bu baxımdan, erməni terrorizminin mahiyyətinin tarixin bütün dövrlərində eyni olduğunu deyə bilərik.

Erməni terrorçularının etdikərinin əvəzi onların etdiyi xəyanətkarlıq kimi yox, dinc sakinlərə qarşı yox, döyüş meydanında verildi. ADNA terrorunun və xalqımıza qarşı həyata keçirilən neçə-neçə terror aksiyasının, qətliamın, soyqırım aktlarının qisasını Azərbaycan Ordusu ləyaqətlə aldı. Bizi bir xalq kimi ermənilərdən fərqləndirən cəhətlərdən biri də budur.

## Erməni terroru barədə faktlar nə deyir?

Ermənilərin aktiv terror əməlləri 1885-ci ildən başlayır. Bu vaxta qədər terk-müsəlmanlara qarşı ara-sıra cinayətlər olsa da, bu rəsmi olaraq terror adlandırmayıb. Armenakan adlanan ilk erməni terror təşkilatı Osmanlının Van, Muş, Bitlis, Trabzon bölgələrində və İstanbulda silahlı toqquşmalar və terror aktları törədərək İran və Rusiyada yaşayan ermənilərlə həmfikir olduqlarını sübut ediblər. 1887-ci ildə İrəvanda Sosial Demokrat Hnçak partiyası yaradılır. Bu, qurumun əsas məqsədi Türkiyənin Anadolu bölgəsini, "Rus" və "İran" Ermənistanları adlandırdıqları əraziləri birləşdirməklə "Böyük Ermənistan" dövləti yaratmaq olub. Partiyanın proqramının 4-cü bəndində göstərilir: "Qarşıya qoyulmuş məqsədə çatmaq üçün təbliğat, təşviqat, terrorizm və dağıdıcı təşkilat yaradılması metodu seçilməlidir".

1890-çı ildə Tiflisdə yaradılmış Daşnaksütunun əsas qayəsi Azərbaycanın Dağlıq Qarabağ, Naxçıvan və Türkiyənin Anadolu torpaqlarında "Böyük Ermənistan" dövləti qurmaq olub. 1892-ci ildə Tiflisdə ilk qurultayını keçirən "Daşnaksütyun" türklərə qarşı sui-qəsdlərin təşkili olunması barədə qərar çıxarıb. Məhz bu qurultaydan sonra "Daşnaksütyun" "türkü, kürdü hər yerdə, hər bir şəraitdə öldür, sözündən dönənləri, erməni xainlərini öldür, intiqam al!" əmrini verib. "Daşnaksütyun" partiyası tərəfindən yaradılan bir sıra terror qrupları mövcuddur: 1973-cü ildə fəaliyyətə başlamış ESƏD qrupu 1980-82-ci illər ərzində Avstriya, Danimarka və Portuqaliyada türk diplomatlarını qətlə yetirib. Məxfi terror qrupu DRO və onun bölmələri: DRO-8, DRO-88, DRO-888, DRO-8888. Daşnakların hazırda bu istiqamətdə fəaliyyəti davam edir.

1972-ci ildə Avstriyanın paytaxtı Vyanada "Daşnaksütyun" partiyasının qurultayı zamanı əsası qoyulmuş Erməni soyqırım ədalət komandosları təşkilatının məqsədi erməni əsilli gənc Livan vətəndaşlarını hərbi birləşmələrdə cəmləşdirmək, türklər və azərbaycanlılara qarşı qanlı terror aksiyaları təşkil etmək olub.

1973-cü ildə Fransada yaradılan "Yeni erməni müqaviməti" 1977-ci ildən başlayaraq Belçika, Fransa, İsveçrə və İtaliyada Türkiyəyə qarşı bir sıra terror aktları törətmişdir.

1975-ci ildə Livanın paytaxtı Beyrutda yaradılan ASALA təşkilatının məqsədi Şərqi Türkiyə, Şimali İran və Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ əraziləri üzərində "Böyük Ermənistan" qurmaq olub. Bu təşkilat əsasən Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı terror aktları həyata keçirib.

1975-ci ildə Suriyanın Dəməşq şəhərində əsası qoyulmuş "Erməni gizli azadlıq ordusu"nun Fələstin hərbi bazalarında hazırlıq keçən mindən artıq döyüşçüsü var. Fəaliyyətinin ilk 6 ilində təşkilat dünyanın müxtəlif ölkəsində 19 türk diplomatının ölümünə səbəb olan terror aktları keçirib.

1979-cu ildə yaradılan "Erməni inqilab ordusu" təşkilatı isə 1983-cü ildə Brüsseldə Türkiyə səfirliyinin attaşesi Dursun Aksoyun qətlində, Lissabonda Türkiyə səfirliyinə hücumu və 1985-ci ildə Ottavada Türkiyə səfirliyinə hücum aktının məsuliyyətini öz üzərinə götürüb.

"Erməni azadlıq cəbhəsi" də 1979-c u ildə yaradılıb və "ASALA"-nın tərkib hissəsi sayılır. Türkiyə və Azərbaycan əleyhinə terrorçular hazırlayır.

1981-ci ildə Fransada yaradılan Orli qrupu isə Fransada yaşayan erməni gəncləri tərəfindən yaradılıb və təşkilat 1987-ci ilədək dünyanın müxtəlif hava limanlarında 10-dan artıq terror aktı həyata keçirib.

Yenə də 1981-ci ildə Parisdə yaradılan "İntiharçılar eskadronu" həmin il Türkiyənin Fransadakı baş konsulluğunu zəbt edilməsində iştirak etmiş, nəticədə qrupun 4 nümayəndəsi, həmçinin keçmiş rəhbəri Yan Kaşkayan həbs edilmişdir.

1988-ci ildə Moskvada yaradılmış "Erməni birliyi" "ASALA" ilə sıx əlaqələr qurub, keçmiş Sovet məkanında terrorçuların fəaliyyəti üçün onları saxta sənədlərlə təmin edib. Qarabağa silah və muzdluların ötürülməsində iştirak edib.

"Gənc ermənilər ittifaqı" 1990-cı ildə Fransada yaradılıb və diplomatların oğurlanması ilə məşğul olub.

"9 iyun qrupu" adlı erməni terror təşkilatı 1991-ci ildə İsveçrədə yaradılıb və bütün fəaliyyəti dövründə həbsdə olan erməni terrorçularının azad olunmasına çalışıb.

"Erməni azadlıq hərəkatı" 1991-ci ildə Fransada yaradılıb və əsas fəaliyyətini "ASALA" ilə sıx əlaqədə həyata keçirib.

"Geqaron" erməni terror qrupu 2001-ci ildə "ASALA" tərəfindən yaradılıb. Təşkilatın məqsədi Cənubi Qafqaz və Orta Asiya ərazilərinə türk mənşəli siyasi lider, diplomat və biznesmenlərə qarşı terror aktlarının keçirilməsidir.

"Apostol" 2001-ci ildə Ermənistan, Suriya və Livan vətəndaşlarından ibarət olan Ermənistan Müdafiə Birliyi tərəfindən yaradılıb. Təşkilatın məqsədi Türkiyə və Azərbaycan ərazilərində terror aktların keçirilməsidir.

"İsveçrə qrupu" Avropanın bir çox ölkəsində fəaliyyət göstərən bu təşkilat Fransa, İtaliya və Yunanıstanda keçirilmiş 4 terror aktının məsuliyyətini öz üzərinə götürmüşdür.

"Demokratik cəbhə" adlı terror təşkilatı ABŞ, Kanada və Qərbi Avropada fəaliyyət göstərir. Təşkilatın əsas məqsədi türk dövlətinin parçalanmasıdır.

Ermənistan adlı terror dövləti SSRİ dağıldıqdan sonra müstəqillik qazansa da dövlət səviyyəsində terroru dəstəkləməkdə davam etmişdir. Eyni zamanda, rəsmi İrəvan terrorçuluğu təcavüzkar siyasətinin əsas vasitələrindən birinə çevirmişdir. Çoxsaylı faktlar, məhkəmə materialları sübut edir ki, Azərbaycanın dinc əhalisinə qarşı, o cümlədən nəqliyyat vasitələrində törədilən terror aktları Ermənistan hökuməti tərəfindən maliyyələşdirilərək, bu ölkənin xüsusi xidmət orqanları tərəfindən həyata keçirilmişdir.

Budur, erməni dövlətinin terror xisləti. Terror sanki bu xalqın varlığına hakim kəsilib. Utopik, xəyali arzuların dalınca qaçan bu xalqın yaratdığı qanunsuz təşkilatların törətdiyi terror əməlləri yalnız başqa dairələrin işinə yarayıb. Ermənistan və ermənilər isə sadəcə etdiklərinin bədəlini ağır şəkildə ödəyiblər və ödəməkdədirlər...

***V.VƏLİYEV***

# Heç bir yaradıcı qrupun tamaşaçının zövqünü korlamağa ixtiyarı yoxdur

*Yəqin ki, əksər insanların günlərlə keçə bilmədiyi, təkrar-təkrar baxdığı və hər dəfə fərqli düşüncələrə qapıldığı filmlər olub. Bizi ruhlandıran, ağladan, güldürən və ya qorxudan filmlər haqqında düşünəndə onların emosiya və davranışlarımıza nə qədər təsir etdiyini, hansı dəyişiklikləri yaratdığını anlayırıq.*




Filmlər səs effektləri, işıqları və dialoqlarla bizi valehedici bir dünyaya aparır və filmlərdə qarşılaşdığımız səhnələrin bizə təsir etməsinə şərait yaradır. Təəssüf ki, filmlərin təsiri müsbət olanlarla məhdudlaşmır.

Kitab oxumaqla müqayisədə filmlərə baxmaq insanların gündəlik həyatda daha çox etdikləri bir fəaliyyətdir. Bundan əlavə, film izləmək kitab oxumaqdan çox daha qısa müddətdə tamamlana bilər.

Həmçinin, filmdə olan şiddət səviyyəsinə diqqət yetirilməlidir. Bəs, psixologiya mövzulu serialların bu qədər geniş yayıldığı dövr cəmiyyətə hansı təsirləri göstərir? Bu serialların tamaşaçılara müsbət və mənfi təsirləri nədən ibarətdir?

Adətən həftəlik yayımlanan teleseriallarda çox vaxt emosiyalara əsaslanan hekayələr və ya həyat hadisələri danışılır. Seriallar üzərində aparılan araşdırmalar göstərir ki, seriallar fərqli həyat tərzini təbliğ etməkdə, tamaşaçıda dəyişiklik yaratmaqda təsirli olur. Son zamanlar psixoloji məzmunlu seriallar və ya verilişlər geniş yayılmağa başlayıb. Nəzərə almaq lazımdır ki, belə məşhur seriallar insanlara müsbət olduğu kimi, mənfi də təsir edə bilər.

Televiziya serialları psixoterapevtə istiqamətlənmə, passivlik, empatiya əvəzinə simpatiya inkişaf etdirmə, toxunma, qucaqlaşma, insanların keçmiş travmatik təcrübələrini tətikləmə kimi real olmayan gözləntilərə səbəb ola bilər.




Yetkinlərin keçmiş həyatları və ya valideynləri ilə bağlı mənfi hisslər də yarana bilər. Bütün bunları nəzərə alaraq, 18 yaşından aşağı olan şəxslərin inkişafı davam etdiyi üçün psixoloji mövzulu seriallara baxmamağı tövsiyə olunur.

Dünyada və Azərbaycanda film tarixinə nəzər salsaq, dünya kino tarixində ilk film 1896-cı ildə Lümyer qardaşları, Azərbaycanda isə ilk filmlər 1898-ci ildə fotoqraf və nasir Aleksandr Mişon tərəfindən çəkilmişdir. 2 avqust isə Azərbaycan Kinosu Günüdür. Ulu Öndər Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli fərmanı ilə 2 avqust "Azərbaycan Kinosu Günü" - ölkəmizdə kino işçilərinin peşə bayramı elan olunub.

Film sənətinin yaranması XX əsrdə göstərilən "sehrli lampa" ilə başlayır. Bu qurğu ilə şüşə üzərində çəkilmiş şəkil ardıcıllığını divara salmaqla göstərmək olurdu. Qurğu əl ilə işləyirdi.

Bəs bu gün Azərbaycan filmləri hansı səviyyədədir? Vəziyyət qaneedicidirmi? Ölkəmizdə film sahəsində hansı yeniliklər olmalıdır? SİA mövzu ilə bağlı araşdırma apararaq ekspertlərin fikirlərini öyrənib.



**Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə:** "Seriallar intellektual tamaşaçı təbəqəsi üçün nəzərdə tutulmayan yaradıcılıq məhsulu sayılır. Buna görə də serial çəkən rejissorlardan qeyri-adi, dahiyanə məhsul tələb etmək düzgün deyil. Amma müəyyən peşəkar xüsusiyyətlərə əməl olunmalıdır. Heç bir yaradıcı qrupun tamaşaçının zövqünü korlamağa ixtiyarı yoxdur.

Azərbaycanda nəinki yaxşı, hətta ortabab serial çəkilmədiyi hamıya məlumdur. Bizim ölkəmizdə seriallar efir vaxtını doldurmaq üçün çəkilir. Çox vaxt isə rejissorlarımız dəb xatirinə seriallar çəkirlər. Buna görə də milli seriallarımızın tamaşaçısı həmişə az olur.

Bəzən seriallarda çəkilən aktyorları çoxumuz tanımırıq. Vaxtilə bu məsələni araşdıranda səbəbi mənə aydın oldu. Sən demə, peşəkar aktyorlar normal qonorar tələb etdikləri üçün rejissorlar çox vaxt tələbələri, hətta bəzən küçədən keçən adamları seriala çəkirlər. Bir dəfə Əməkdar artist Çingiz Əhmədov mənim də qatıldığım televiziya proqramında dedi ki, Azərbaycanda seriallara taksi sürücülərini də çəkirlər. Yaxşı serial çəkmək üçün yaxşı maliyyə lazımdır. Çünki ancaq peşəkarlar ortaya yaxşı məhsul çıxara bilərlər. Peşəkarlara isə qonorar vermək lazım gələndə təşkilatçıların əli əsir. Buna görə də Azərbaycan serialının ömrü yaz yağışı qədər qısa olur.

Yaxşı serial çəkmək üçün ilk növbədə, yaxşı sponsor olmalıdır. Azərbaycanda sponsorların əsasən, beldən aşağı "komediya" filmlərinə pul yatırması, yaxşı sənət əsərlərinin ekran işinə çevrilməməsinə gətirib çıxarır. Fikir verirsinizsə, bizim ədəbiyyatımızda yüzlərlə, hətta mən deyərdim minlərlə möhtəşəm romanlar, povestlər, novellalar və s. nümunələr var. Bəs bunları ekran işinə çevirmək üçün maliyyə yatıran niyə yoxdur?

Şəxsən, mən istərdim ki, yazıçılarımızın bizə əmanət qoyub getdiyi, gənclik dövrlərimdə oxuduğum, hətta bəzi gənclərin belə hazırda müraciət etdiyi bestseller bu gün ekran işinə çevrilsin. Bu, həmin əsərin tam surətdə filmə köçürülməsi də ola bilər və yaxud həmin əsərlərin motivləri əsasında da maraqlı bir ekran işinin ərsəyə gəlməsi də.

Doğrudur, bu gün "Azərbaycanfilm" tərəfindən bir sıra maraqlı əsərlər filmə çevrilir, lakin məni təəssüfləndirən budur ki, Azərbaycan gəncliyinin bir qismi yuxarıda qeyd etdiyim kimi, beldən aşağı "yumorlara", qeyri-etik cümlələrin işləndiyi qısa səhnəciklərə (sketçlərə - red.) üstünlük verir. Sözsüz ki, xidmət də tələbata uyğundur. Ona görə də hazırda ölkəmizdə istər kino, istərsə də serial sektorunda bu səpkili ekran işlərinin ərsəyə gəlməsi böyük üstünlük təşkil edir.

*Ardı Səh. 12*

# Heç bir yaradıcı qrupun tamaşaçının zövqünü korlamağa ixtiyarı yoxdur



Əvvəli-Səh-11

Məncə, bu tendensiyanı dəyişməli, gəncliyimizə köhnə əsərləri, oradakı obrazların xarici-daxili atmosferini aşılamalı və gələcəkdə ölkəmizin mədəniyyət sahəsində olan şəxsləri bu şəkildə formalaşdırmalıyıq. Axı bizim mədəniyyətimiz, ədəbiyyatımız, hətta filmlərimiz dillərə dastan, bu gün də xatirimizdə qalan replikalarla doludur? Bunu niyə bizdən sonrakılara da ötürməyək?".

**Ssenarist və rejissor Ramil Adiloğlu:** "Əvvəlki illərlə müqayisədə kino sənətində xeyli inkişaf var. Lakin pandemiyadan sonrakı dövrdə o qədər də böyük rəqabət hiss olunmur. Səbəb də istehsalçılara maliyyə dəstəyinin azalmasıdır.

Filmin keyfiyyət məsələsi isə günü-gündən artır. Heç kimdən heç nə ummaq lazım deyil. İstehsalçılar



özləri özlərini maliyyələşdirməlidir. Onlar ya sponsorlarla, ya da investorlarla istehsal prosesini etməlidirlər.

Çətin olsa da, reklam hesabına yaxşı film istehsal etmək olar. Düşünürəm ki, gələcəkdə film sahəsində yeni janrlar olacaq. Həmçinin, təkrar ssenarilər üzərində çəkilən filmlərin sayı da azalacaq. Yəni, rejissor və istehsalçılar bu məqama xüsusi diqqət edəcək.

Janrlarda da dəyişiklik etmək lazımdır. Yeni janrlar gətirmək çətin olsa da, bunun üçün cəhd etmək lazımdır.

Düşünürəm ki, yaxşı film və yaxşı piar yaxşı satış verir. Yaxşı film zəif piardan bata da bilər. Rəqabət yarandıqca əlbəttə ki inkişaf da olacaq. İstehsalçıların bir araya gələrək güclərini birləşdirməsi isə mütləqdir".

**Deputat Ülviyyə Həmzəyeva:** "Çox istəyirəm ki, uzun uzadı ailə dramları olan serialların əvəzinə tarixi filmlər çəkilsin. Bildiyimə görə, Azərbaycanın müstəqilliyi ilə bağlı Cavanşir Hadıyevin prodüserliyi ilə serial ssenarisi var idi...

Serial çəkilirsə, bu cür yarı dedektiv, yarı araştırıcı və real hadisə-



lə-

ləri özündə ehtiva edən serial görmək yenilik olardı.

Mövzularımız həddən çoxdur. Ən əsası isə Zəfər tariximiz, qəhrəmanlarımız, onların şücaətləri barəsində. Sənət adamlarımız, ixtiraçılarımız və bu qəbildən olan mövzulu bədii filmlər çəkilə bilər. Bir söz ilə yaxşı Azərbaycan kinosuna susamışıq".



**Psixoloq Leyla Əli:** "Filmlərin insan psixologiyasına müsbət təsiri ilə yanaşı mənfi təsirləri də var. Bəzən filmlərdə seçilən mənfi və neqativ rollar reallıqdan uzaq olur. Əgər böyüməkdə olan uşaq bu filmlərdə rol model alırsa həmin qəhrəmanın yaşayışına, həyat tərzinə və ya bahalı maşınına baxacaq. Yəni, insanlar arasındakı münasibətlərə o gözlə baxacaq.

Biz bilirik ki, filmlərdəki həyat gerçək həyat deyil. Müasir dövrdə film və serialların gerçək olmadığının lüks həyatlar üzərində qurluduğundan görmək olar. Müəyyən filmlərdə qəhrəmanlar günün neçə saatı işləyir, hansı peşəyə sahibdir, heç uğursuzluq yaşamır və s bu kimi ssenarilər tək yeniyetmələrin yox böyüklərində psixologiyasına mənfi təsir edir".

SİA araşdırma mövzusu ilə bağlı şəhər sakinlərinin fikirlərini də öyrənib.

**Şəhər sakini Paşa Məmmədov:** "Seriallarda mövzular çox bayağıdır və ailə-məişət mövzularından kənara çıxmırlar. Düşünürəm ki, fərqli və daha çox tələbat olan mövzularda filmlər ərsəyə gəlsə daha yaxşı olardı. Məsələn, maarifləndirici seriallara çox ehtiyacımız var".

**Şəhər sakini Aytac İbrahimxəlilova:** "Bu gün çəkilən seriallar qaneedici deyil. Düşünürəm ki, bizimkilərdə serial və film çəkilişi çox süni alınır. Aktyorlar rola girə bilmirlər. Sünilik çox hiss olunur".

**Şəhər sakini Aysu Məmmədova:** "Mən Azərbaycan seriallarına baxmıram. Əvvəlki filmlərimiz çox maraqlı idi. İndi isə çox adi və sıradan mövzularda filmlər çəkilir".

**Şəhər sakini Röya Vahabova:** "Təbii ki, əvvəlki kino industriyası ilə müqayisədə indiki vəziyyət çox da ürəkaçan deyil. Amma son zamanlar bəzi rejissorların yaxşı nəysə etməyə çalışdıqlarını görürük.

Seriallardan danışmalı olsaq, indiki serialların durumunu qaneedici saymazdım. Amma hər halda bəzən yaxşı işlər də ortaya çıxır. Sadəcə istedadları üzə çıxarmaq, maliyyə lazımdır".

***Ayşən Vəli***

# Armenianreport: "Paşinyanın Putinlə görüşü Ermənistanı sanksiyalara cəlb edəcək"

***Erməni mətbuatı baş nazir Paşinyanın Rusiya Federasiyasının prezidenti Vladimir Putinlə görüşünü və verilən qərarları tənqid etməkdə, hətta ittihamlar irəli sürməkdə davam edir. SİA xəbər verir ki, görüşlə bağlı Armenianreport informasiya portalı məqalə ilə çıxış edərək qeyd edir ki, Rusiya və Ermənistanın nasizmlə mübarizədə birgə iştirakları barədə razılaşma əldə etməsi Qərbin, xüsusilə ABŞ-ın və Böyük Britaniyanın Ermənistana qarşı siyasi-iqtisadi cəhətdən konkret addımlar atmalarına şərait yaradır.***

### Erməni mediası iddia edir ki, Putin ənənəvi davranışını davam etdirməklə Paşinyanı da özü ilə bağlı siyasi uçuruma doğru çəkib aparır



Rusiya prezidentini ittiham edən və bu xüsusda Paşinyanı da hədəfə alan erməni portalı erməni baş nazirinin RF prezidenti ilə görüşünün Ermənistan üçün pis nəticələr verəcəyini yazır və qeyd edir ki, Putinin əlinin sıxılmasını qəbul etməyən Qərb onun beynəlxalq məhkəməyə cəlb olunması ilə bağlı addımlar atmağa hazırlaşdığını gizlətmədiyi halda, bu gözləntilər Ermənistana münasibətdə də neqativ təsirlərini göstərəcək. Beləliklə, adıçəkilən erməni mediası iddia edir ki, Putin ənənəvi davranışını davam etdirməklə Paşinyanı da özü ilə bağlı siyasi uçuruma doğru çəkib aparır.

### Bütün dünya Ukraynadakı döyüşlərin danışıqlar masasında deyil, döyüş meydanında aparılacağını aydınlaşdırandan sonra Putin Paşinyanla görüş keçirir

Portal bu yaxınlarda ABŞ-ın dövlət katibi Ned Praysın CNN-ə verdiyi şərhini də xatırladır və Birləşmiş Ştatların RF-nı "terrorçuluğun sponsoru" siyahısına qəbul edilməsi mümkünlüyü barədə fikirlərini yazır. "Biz qanunu diqqətlə öyrənirik", deyə Armenianreport Praysın bəyanatından sitat gətirir. "Telekanalın adının çəkilməyən




mənbəsinin məlumatına görə, administrasiya Rusiyanın müvafiq siyahıya salınmasını RF-nın Ukraynada müharibə aparması ilə əlaqələndirir", deyə Armenianreport portalı yazır.

Putini və Paşinyanı hədəfə alan adıçəkilən informasiya vasitəsi əlavə edir: "O, bu dəfə də "lazımi" vaxt seçdi. Xüsusi əməliyyatın başlamasından öncə, bütün dünya Ukraynada demokratiya uğrundakı döyüşlərin danışıqlar masasında deyil, döyüş meydanında aparılacağını aydınlaşdırandan sonra Putin Paşinyanla görüş keçirir. Bütün bunlardan sonra isə bax belə bəyanat verilir. Ümumilikdə isə Qərbin qəzəbinə yalnız bu bəyanat səbəb ola bilməz".

### "Ermənistanı Rusiyanın sanksiya sədlərini aşması üçün dəstək verən ölkələr siyahısına daxil edə bilərlər"

"Özəlliklə, Kremlin bəyanatında bildirildiyi kimi, tərəflər bir sıra ölkələrin birtərəfli sanksiyalar tətbiq etməsindən təəssüfləndiklərini bildirir və bir-birlərini məlumatlandırmaqla bu kimi çağırış sədlərini aşacaqları barədə razılıq əldə ediblər. Məntiqcə bu bəyanatdan sonra Ermənistanı Rusiyanın sanksiya sədlərini aşması üçün dəstək verən ölkələr siyahısına daxil edə bilərlər. Bu isə bizim ölkəmizə qarşı sanksiyaların tətbiq edilməsi üçün şərait yaradır", deyə Armenianreportun məqaləsində bildirilir.

***Rövşən RƏSULOV***

İTTİHAM+TƏLAŞ

# Ermənistanın populist mübarizəsi...

***Ermənistanın hazırkı hakimiyyətinin Ermənistan və artsaxın təhlükəsizliyi məsələlərində legitimliyi yoxdur. O vaxt hakimiyyət vətəndaşları azdırıb, səs alıb, indi isə vətəndaşın iradəsinə zidd siyasət aparır. Yəni demək istəyirəm ki, bu gün Ermənistanda antidemokratik proses gedir. (...hansı demokratiyadan söhbət gedir?)***

Deməli, bunu Ermənistanın keçmiş ombudsmanı Arman Tatoyan öz ”Facebook” səhifəsində yazıb. Armana görə, hakimiyyətin indiki siyasəti 2021-ci ildə keçiriləcək parlament seçkilərində iştirak etdikləri proqrama ziddir.

Deyim ki, bu ermənilən işi Tanrıya deyə bilmərəm, amma kiməsə qalıb. Yəni, bunların həmişə olduqları kimi bu gün də yuxarıda yerləri yox, aşağını da bəyənmək istəmirlər. İndi Rusiya ilə bağlı baş verənlərin sonu bir az dumanlıdır. Nə bilmək olar,..hər şey ola bilər.

Buna görə də hazırda Ermənistandakı əsl problem, təbii ki, bütün ermənilərə şamil edilməsə də, bəzilərinin Nikol Paşinyanın hakimiyyətdən uzaqlaşdırılması məsələsidir. Nikol da getmir. Maraqlıdır ki, ona 2008-ci ilin martın 1-ni xatırladıb, Ermənistanda təkrar şəkildə qan tökəcəklərini deyib ”xox” da gəlirlər, amma qan bahasına belə Paşinyanı istefaya məcbur edə bilmirlər.

O da maraqlıdır ki, bu gün Ermənistanda hakimiyyətlə əleyhdarları arasındakı mübarizəni hərə bir adla çağırır. Məsələn, erməni ictimai-siyasi xadim kimi təqdim edilən Qaregin Miskaryan iddia edir ki, bu gün ölkədəki hakimiyyət-müxalifət qarşıdurması populizmlə elə populizmin mübarizəsindən başqa bir şey deyil. Yəni erməni xadimin dediyindən belə başa düşülür ki, hazırda erməni müxalifəti populizmdə ittiham etdiyi hakimiyyətlə elə populist üsul və alətlərlə mübarizə aparmağa çalışır. Deyim ki, Miskaryan dediklərini əsaslandırmağa da çalışır. Məsələn o iddia edir ki, bu gün bəzi erməni müxalifətçilərin bayraq təbliği, (...yadınızda olar, erməni parlamentindəki ”artsax bayrağı” ilə bağlı yaşantıları nəzərdə tutulur-A.B.) artsaxa uğursuz səfərlər populizmin təzahürlərindən başqa bir şey deyil. Və dərindən qazsaq görərik ki, Ermənistan parlamentində nə güc, nə də müxalifət var. Sadəcə olaraq, onun divarları arasında toplaşan insanların dövlətlə heç bir əlaqəsi-zadı yoxdur. Sadəcə olaraq, onlar erməni dövlətinin problemlərini həll edə bilmirlər və bütün fəaliyyətləri hakimiyyət uğrunda acınacaqlı, ucuz mübarizəyə gedir.



Maraqlıdır ki, Miskaryan bu vəziyyəti indiki erməni siyasi düşüncəsinin qıtlığı ilə izah edir. Yəni onun dediklərindən bu gün Ermənistanda heç bir gücə malik müxalifətin olmadığı anlaşılır. Məhz bu mənada hazlrda özünə müxalifət deyən ermənilərin bayraqlar dalğalandırmaq, anlaşılmaz bəyanatlar vermək və digər populist addımlarla öz varlığını xatırlatmaqdan başqa çarəsi yoxdur. Ermən xadimə görə, hökumət, iqtidar partiyası isə bu işdə ancaq onlarla ayaqlaşmağa çalışır.

Qeyd edim ki, Qaregin Miskaryan bu gün (...təkcə bu günmü?) İrəvanın xarici siyasətinin xarici təzyiq altında formalaşdığını bildirərək, Ermənistanın Azərbaycanla danışıqlar masasına oturub-durmayacağının cavabının da Ermənistan müxalifət və ya hakimiyyətdən deyil, xarici geosiyasi oyunçuların maraq və təsirindən asılı olduğunu iddia edir.

Miskaryanın sözlərinə görə, Ermənistan rəhbərliyi və müxalifətinin əksər addımları Ermənistanın maraqlarına elə də zidd deyil. Yəni bəzən onlara nəzarət edən xarici qüvvələrin gündəliyi ilə üst-üstə düşə bilər. Amma xarici gündəliyin Ermənistanın maraqları ilə üst-üstə düşmədiyi hallarda onlar kənar təzyiqlərə tab gətirə bilmirlər.

...Təbii ki, burada erməni parlament sədrinin keçmiş müavini, respublikaçı Eduard Şarmazanovu xatırlamamaq olmur. Yazının əvvəlində də dediym kimi, bu gün onun və onun ”başbiləni” Serjik Sarkisyanın nə yuxarıda, nə də aşağıda yeri yoxdu deyə, ötən günlərin xiffətini çəkirlər. Deyim ki, hətta erməni saytlarına verdikləri bəzi açıqlamaları ilə gündəmdə qalmağa da çalışırlar.

Məsələn, o gün Şarmazanov yenə də özünə layiq ”basıb-bağlayıb”. Sarkisyanlı Ermənistanı yada salıb. Ermənilərə növbəti ”soyqırım”ın ildönümü ilə bağlı başsağlığı verib. Amma bir şeyə təəssüflənib. Təəssüflənib ki, bu il ”soyqırım”ın ildönümü ilə bağlı İrəvanda keçiriləcək yürüş erməni hakimiyyətinin açıq şəkildə Ermənistanın və artsaxın maraqlarını Ankara və Bakıya təslim etmək kursu apardığı bir vaxta təsadüf edir.

Şarmazanov daha sonra hazırda gah nəzakətli, gah da çox həyasız diplomatik oyunun pərdə arxasında nələr baş verdiyini bütün ermənilərin anladığını bildirib. O,Qərb dünyası ilə Rusiya arasında bugünkü sərt qarşıdurmada ölkəsinin düşdüyü əlacsızlığından gileylənib. Amma, deyim ki, erməni olduğunu da unutmur. Bu gün Rusiyanın sıxışdırılmasının avtomatik olaraq Türkiyənin regiondakı rolunun artıracağını xatırladır. Hakim rejimə könüllü və ya qeyri-ixtiyari dəstək verən hər bir erməninin Azərbaycan və Türkiyənin revanş planlarına xidmət etdiyini deyir.

Maraqlıdır ki, erməni iqtidarının ünvanına xeyli deyinən Şarmazanov sonda ”öz etirafında” bulunaraq bəyan edir ki, bu gün iqtidarda olan rusofoblar ümid edirlər ki, Rusiya məğlub olacağı təqdirdə bura Qərb gələcək. Yox, yanılırsınız ...Türkiyə bura gələcək.

Təbii ki, təkcə Şarmazanovun deməsiylə deyil axı...

***Ağasəf Babayev***



**Mətanət MƏMMƏDOVA**

## Qarabağın işğalı ilə yaşıd Minsk qrupu

***Bəli, 30 il idi ki, Qarabağ qonşuluqdan kənar ermənilərin haqsızlığına, ədalətsizliyinə uğramışdı. Əslində bu məsələni bu cür ifadə etmək də bir qədər düzgün deyil. Yəni ermənilər havadarlarının dəstəyi olmadan təklikdə Qarabağı işğal etməyə qadir ola bilməzdilər. 30 il idi ki, kürəklərinə əl qoyanların dəstəyi ilə də işğal altında idi.***

Təsadüfə bax, Minsk qrupu da 30 yaşındadır. Tam Qarabağın işğalı ilə yaşıd. 30 il idi ki, biz onlardan bir tərpəniş, bir hərəkət gözləyirdik. Onlar isə yerlərindəcə susurdular. Qarabağın azadlığı, qan tökülməməsi, dinc yolla bu məsələnin həlli üçün dəfələrlə müraciətlərimizə baxmayaraq Minsk qrupu varlığını büruzə vermədi. Daha doğrusu, ya bacarmadı, ya da bacarmağa qoymadılar.

Biz nə etdik? Cənab Prezidentimizin hər zaman söylədiyi kimi, danışıqlar yolu ilə olmasa da, müharibə yolu ilə torpaqlarımızı geri qaytardıq. Həm də bunu 44 gün ərzində mümkün etdik. Minsk qrupu isə elə kənardanca baxa-baxa, susa-susa qaldı.

Prezident İlham Əliyevin Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında nitqindəki ”...Minsk qrupu artıq yoxdur. Düzdür mən, bir neçə ay bundan əvvəl, hələ Rusiya-Ukrayna müharibəsindən əvvəl demişdim, məndən soruşmuşdular ki, Minsk qrupu nə ilə məşğul olacaq? Dedim ki, 2022-ci ildə onların yaranmasının 30 illik yubileyidir. Yubiley keçirəcəklər, sonra pensiyaya gedəcəklər. Amma Rusiya-Ukrayna müharibəsi başlayandan sonra heç yubiley keçirməyə bunlarda fürsət olmadı” dəyərli fikirlərindən bəhrələnərək bu yazını yazdım. Yazmaqla da üzümü Minsk qrupuna tutub demək istədim ki, sən Qarabağın işğalı ilə yaşıd idın. 30 ilin sonunda Qarabağ azad olundu, Azərbaycan Zəfər çaldı. Bax, bu gün dünya azərbaycanlıları Şuşadadırlar, Zəfər qurultayında iştirak edirlər. Biz torpaqlarımızı da azad etdik, Zəfəri də daddıq. Sənə isə yubileyini təntənəli şəkildə qeyd etmək nəsib olmadı. Rusiya-Ukrayna müharibəsi buna fürsət yaratmadı. Çünki sən bu yubileyi haqq etmirdin. Elə bu səbəbdən də zaman da sənə tərəf işləmədi.

# G20 sammitində hansı məsələlər müzakirə olunacaq?

***“G20, başqa sözlə desək Böyük İyirmilik adlanan qurum qeyri-rəsmi bir qurumdur. Buna görə də orada hər hansı icbari qərarlar qəbul edilmir. Lakin bununla belə qurum öz fəaliyyəti ilə inkişaf etmiş ölkələri inkişaf etməkdə olan ölkələrlə bağlamaqla dünya iqtisadiyyatına əvəzsiz töhfə verir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov bildirib.***

Onun sözlərinə görə, G20 1990-cı illərdə dünyanı bürüyən maliyyə böhranına cavab olaraq yaradılıb: ”Bu həmin vaxtlar idi ki, sənayecə inkişaf etmiş ölkələr dünyanın inkişaf etməkdə olan ölkələrinin qlobal iqtisadiyyat məsələlərinin müzakirəsində iştirakının çox cüzi olduğunu başa düşdülər. Bu məqsədlə G20-dən əvvəl G7 qrupu yaradılmışdı. 1998-ci ildə isə Vaşinqtonda, hətta G20-nin görüşü oldu. Bu görüşdən məqsəd, necə deyərlər, qeyri G7 ölkələrini qlobal maliyyə-iqtisadi problemlərinin həllinə cəlb etmək məqsədi güdürdü. Sonralar G22, hətta G33 qruplarının məsləhətləşmələri bu üsulun qlobal problemləri həll etmədə faydasını göstərdi. G20 formatında mütəmadi forumların keçirilməsi isə 1999-cu ildən etibarən həyata keçirilir. Böyük iyirmilik 19 ölkənin maliyyə nazirlərinin və mərkəzi bank direktorlarının məşvərət orqanıdır. Bu orqana Argentina, Avstraliya, Braziliya, Kanada, Çin, Fransa, Almaniya, Hindistan, İndoneziya, İtaliya, Yaponiya, Meksika, Rusiya, Səudiyyə Ərəbistanı, Cənubi Afrika Respublikası, Cənubi Koreya, Türkiyə, Birləşmiş Krallıq, Amerika Birləşmiş Ştatları və Avropa İttifaqı daxildir. Bu ölkələr dünya sənayesinin 80 faizini, ümummilli məhsulun 85 faizini, dünya ticarətinin 75 faizini və dünya əhalisinin isə 66 faizini təmsil edirlər. Qlobal maliyyə problemlərini qlobal maliyyə təsisatlarının iştirakı olmadan müzakirə etmək qeyri-mümkün olduğundan forumlarda bir qayda olaraq, Beynəlxalq Valyuta Fondunun rəhbəri, habelə Dünya Bankının başçısı da iştirak edirlər. Tarixçəsinin qısalığına baxmayaraq, G20 indiyədək qlobal miqyasda bir çox mühüm uğurlar qazanıb. Maliyyə sistemində pozuntuların, terrorçu təşkilatların maliyyələşdirilməsinin qarşısının alınması kimi sahələri misal gətirmək olar.




Qısa olaraq ifadə etsək G20, qlobal iqtisadiyyat problemlərin müzakirə olunduğu və problemlərdən çıxış yollarının axtarıldığı bir qurumdur. Yuxarıda da qeyd etdiyim kimi Rusiya da G20nin üzvlərindəndir və növbəti Sammitə də məhz bu baxımdan dəvət olunub. ”G20”yə bu il sədrlik edən İndoneziyanın maliyyə naziri Şri Mulyani İndravatinin bildirdiyinə görə Vladimir Putinin payızda Bali adasında keçiriləcək G20 liderlərinin görüşünə dəvəti çoxdan həyata keçirilib, çünki üzv dövlətlərə dəvətlər əvvəlcədən göndərilib.

Samitin hələ payızda keçiriləcəyini nəzərə alaraq deyə bilərik ki, Rusiyanın həmin samitdə mütləq şəkildə iştirak edəcəyi sual altındadır. Çünki G20 daxil olan bəzi dövlətlər Rusiyanın iştirakını məqbul hesab etmədiklərini və Putinin iştirakının arzuolunmaz olduğunu bəyan edə bilərlər. Amma Rusiyanın iştirak edib etməyəcəyindən asılı olmayaraq Samitdə Rusiyanın Ukraynaya təcavüzü fonunda tətbiq edilən sanksiyalar səbəbilə dünya iqtisadiyyatındakı vəziyyət mütləq şəkildə müzakirə olunacaq və təbii olaraq tövsiyyə xarakterli qərarlar qəbul olunacaq. Heç şübhəsiz ki, müzakirə olunacaq məsələlərdən biri də Rusiyanın dünya iqtisadiyyatındakı payının neçə kompensasiya edilə biləcəyi ilə bağlı olacaq”.

***Banuçiçək Hüseynli***

# Rusiya Ermənistanı yenidən silahla təchiz edəcəkmi?



### Dmitri Babiç: ”Silahlanma cəhdi Ermənistanda revanşçılıq hisslərini gücləndirə bilər”

Bir neçə gündür ki, müxtəlif erməni KİV-lərində Rusiyanın Ermənistanı silahla təchiz etməsi ilə bağlı materiallar, analitik yazılar, habelə şərhlər verilməkdədir. Üstəlik, Ermənistanın baş naziri Nikol Paşinyanın aprelin 19-da Rusiyaya rəsmi səfəri zamanı onun bu barədə Vladimir Putinlə danışıb-danışmaması da suallar yaradır. SİA xəbər verir ki, mövzu ilə bağlı Caliber - rusdilli informasiya mərkəzinə müsahibə verən ”İnoSMİ” portalının siyasi şərhçisi, politoloq Dmitri Babiç bir sıra maraqlı məqamlara toxunub. Müsahibədən bəzi nəzərə çarpan detalları təqdim etməklə qeyd edə bilərik ki, rusiyalı şərhçinin sözlərinə görə, o iki ölkə başçısının görüşləri zamanı sözügedən mövzunun qaldırılmadığını düşünür və əslində həmin mövzu həm də çox təhlükəlidir. SİTAT: ”Hər kəsə aydındır ki, Azərbaycan silahlanmaya görə Ermənistandan kifayət qədər yüksəkdədir və belə bir vəziyyətdə Ermənistan silahlı qüvvələrini yenidən silahlandırmaq çox təhlükəlidir, belə ki, bu amil erməni tərəfində revanş alma hissi baxımından yalan təəssürat yarada bilər. Yəni bu, yanğını kerosinlə söndürmək kimidir. İnsanlarda uduzulmuş partiyanı yenidən oynamaq fikrini oyatmaq düzgün seçim deyil.

Ümumiyyətlə, postsovet münaqişələrinin haradan yaranmasını dərk etmək vacibdir. Sovet İttifaqı kimi vahid sistem dağılmağa başlayanda millətçilərdə, xüsusilə ermənilərdə belə bir təsəvvür yarandı ki, dağlar hərəkətə gəlir və situasiya dəyişilir və indi həmin situasiyadan dərhal istifadə etmək lazımdır, özlərinə yeni dövlət yapmaq lazımdır ki, sonradan həmin imkan bir də olmayacaq. Və belə bir şəraitdə onlar çoxsaylı avantüralara doğru atılırlar ki, buna da müharibə deyirlər. Məhz bundan yayınmaq daha yaxşı olardı”.

”Biz Heydər Əliyevin Ermənistanın eks-prezidenti Robert Koçaryanla görüşünü, İlham Əliyevin Nikol Paşinyanla və Ermənistanın başqa liderləri ilə görüşlərini xatırlayırıq, amma nəticədə situasiya müharibə meydanında həll olundu”

Ümumilikdə Putinlə Paşinyanın sonuncu Moskva görüşünün qiymətləndirməsini aparan Dmitri Babiç hesab edir ki, 20 il boyunca aparılan danışıqlar bütün bunların illüziya olduğunu göstərdi: ”Biz Heydər Əliyevin Ermənistanın eks-prezidenti Robert Koçaryanla görüşünü, İlham Əliyevin Nikol Paşinyanla və Ermənistanın başqa liderləri ilə görüşlərini xatırlayırıq, amma nəticədə situasiya müharibə meydanında həll olundu. Belə bir ifadə mövcuddur ki, 21-ci əsrdə müharibə problemlərin həlli üçün vasitə deyil, lakin dövlətə Ermənistanda olduğu kimi, 17-ci əsrin vulqar millətçiliyi müqavimət göstərirsə onda başqa cür vasitələrə də yer qalmır”.



”Təəssüf ki, kompromisli diplomatik vasitə bu kimi hallarda işləmir”, deyə qeyd edən rusiyalı siyasi şərhçinin sözlərinə görə, biz hamımız görürük ki, Ermənistanda nələr baş verir: ”Paşinyana qarşı mitinqlər keçirilir. Küçələrə 11 min insan çıxdı ki, bu da Ermənistan üçün azdır. Orada hansı təkliflərin irəli sürüldüyünə diqqət yetirin - nəqliyyat dəhlizlərinin blokadadan çıxarılması dayandırılsın, bu guya ki, Ermənistanın suverenliyini pozur. Yəni bu o deməkdir ki, bütün region dayanmalıdır, yollar və kəmərlər fəaliyyətsiz qalmalıdır və bütün bunların yerinə Ermənistanın suverenliyinə riayət olunur. Bu, istənilən məntiqə ziddir: iqtisadi, humanitar, geosiyasi, özü də belə çağırışlar Ermənistandan səslənir. Hər kəsə aydındır ki, Paşinyan öz ölkəsində bu cür millətçi qruplaşmalara tamamilə nəzarət edə bilmək gücündə deyil. Mənə elə gəlir ki, onun hakimiyyətdə qalması faktı da demokratiyanın təcəssümü deyil, əslində Ermənistanın Qərb dünyasından asılı vəziyyətdən qalmasının böyük göstəricisidir. Aydındır ki, Qərb Paşinyana dəstək göstərir. Və Paşinyanın müharibəni uduzduğu halda hakimiyyətdə qalması faktı da bunu göstərir. Lakin indiki şəraitdə Qərbin ermənipərəst mövqe nümayiş etdirməsindən biz daha çox bənzər möcüzələri görəcəyik. İstənilən halda Azərbaycan Prezidentinin danışıqlara getməsi yaxşı haldır. O, bununla göstərir ki, onun səbri var və yerdə qalan məsələləri 21-ci əsrin ruhuna uyğun şəkildə həll etmək istəyindədir”.

### ”Qərb KİV-ləri Azərbaycana qarşı həyasız məqalələr dərc edirdilər”

Brüssel və Moskva meydançasında rəqabətin mövcud olub-olmaması ilə bağlı sualı cavablandıran rusiyalı politoloq hesab edir ki, o rəqabətin Rusiya tərəfindən hiss edildiyini deyə bilməz. Lakin bununla yanaşı, Aİ-nin Qarabağ məsələsində Rusiyanı irəliyə buraxılmaması ilə bağlı düşüncəsinin də yenilik olmadığı qənaətindədir. SİTAT: ”Lakin gəlin situasiyaya obyektiv baxaq: 1992-ci ildən, SSRİ-nin dağıldığı dövrlərdən başlayaraq Aİ hər hansı bir münaqişəni həll edə bilibmi? Yox, bir dənəsini də etməyib. Aİ öz müdaxiləsi ilə onu daha da dərinləşdirib. Aİ-nin müdaxiləsindən sonra Suriyada vəziyyət gərginləşdi, Balkan ölkələrində də münaqişə ocaqları qalır. Kollektiv Qərbin İraqa və Əfqanıstana müdaxiləsi barədə isə mən ümumiyyətlə susuram, oralarda tam fəlakətdir.



Bu ona görə baş vermir ki, fransızlar və ya ingilislər sərsəmdirlər, ona görə ki, Avropada mövcud olan ideologiya Aİ-yə Rusiya, Azərbaycan, Türkiyə kimi ölkələrlə yuxarıdan aşağıya baxmaqla danışmaq imkanını verir. Buna misal olaraq Bakıda keçirilmiş 2015-ci ilin Avropa oyunlarını xatırlaya bilərik. Avropadan dəvət alan bir çox avropalı rəhbərlər gəlmədilər, hansı ki, bu Avropa oyunları idi və Qərb KİV-ləri Azərbaycana qarşı həyasız məqalələr dərc edirdilər. Bununla yanaşı, həmin məqalələr yumşaq desək axmaq info-şəraitliyi əks etdirirdi. Aİ-nin erməni-azərbaycanlı məsələsini həll etməsindən isə mən yalnız sevinə bilərdim. Lakin məsələnin həll edilməmiş qalması Cənubi Qafqazın nəqliyyat dəhlizlərinin bağlı qalması ilə nəticələnir və onların bəziləri yalnız Azərbaycana deyil, Türkiyəyə, Gürcüstana və əlbəttə ki, Rusiyaya gərəklidir. Ancaq Aİ bu problemi həll edə bilmir. Mən onun imkanlarına inanmıram.

Avropalılar özlərinin təkəbbürləri və riyakarlıqlarında batıblar. Bizim hər birimiz müharibəni sevmirik, ancaq siyasi problemlərin hazırkı məqamda müharibəsiz həll edilə biləcəyini də düşünmək sadəlöhvlükdür. Azərbaycan 26 il Qarabağla bağlı danışıqlar apardı, Rusiya isə Ukraynadan Minsk razılaşmalarına əməl etməsini 8 il gözlədi. Ancaq elə bir an gəlir-çıxır ki, müharibə qacınılmaz olur və bütü bunlara görə məsuliyyəti də məsələnin diplomatik variantlarda həll olunmasına imkan verməyən tərəf daşıyır. Məhz 2022-ci ilin qışında Donbasda baş verən situasiya 2020-ci ilin payızında Qarabağda baş verdi”.

### ”Paşinyanın növbəti vaxtlarda Moskva ilə hansısa vacib sənədlərə imza atacağı inandırıcı görünmür”

Ermənistanın Rusiya və Belarusla ittifaq dövlətinə qoşulmasının nə qədər müknü ola biləcəyi məsələsinə də toxunan Dmitri Babiç bildirib ki, İrəvan Moskva və Minsk ittifaqına qoşulmayacaq. Belə ki, bu ittifaq dövlətləri öz tarixlərinin çətin dövrlərini yaşayırlar: ”Buna 2020-ci ilin avqustunda və 2021-ci ilin əvvəlində Belarusda baş verən hadisələr zərbə vurdu, həmçinin, Rusiyanın 2022-ci ilin 24 fevralında Ukraynada başlatdığı və davam etdirdiyi hərbi əməliyyatları da mane oldu. Ermənistandakı ictimai rəyin böyük hissəsi Rusiyanı ”toksik” ölkə kimi qəbul edirlər. Bunun ədalətli olduğunu düşünmürəm, situasiya gələcəkdə dəqiq olaraq dəyişiləcək, ancaq indi reallıq belədir. Ona görə də Paşinyanın növbəti vaxtlarda Moskva ilə hansısa vacib sənədlərə imza atacağı inandırıcı görünmür”.

ŞƏRH AKTUAL

***Rövşən RƏSULOV***

# Putin və Lavrovun qızlarına qarşı sanksiyalar...



***Avstraliya Putin və Lavrovun qızlarına qarşı sanksiyalar tətbiq edib. Beləliklə, bundan sonra onların ölkəyə girişinə icazə verilməyəcək. Bundan əlavə, 144 rusiyalı deputat da Avstraliya tərəfindən tətbiq edilmiş sanksiyalar siyahısındadırlar. SİA xəbər verir ki, bu barədə "UNN" "The Canberra Times"a istinadən xəbər verir.***

Xatırladaq ki, Putinin qızları Mariya Vorontsova və Katerina Tixonovaya qarşı oxşar sanksiyalar daha əvvəl ABŞ və Böyük Britaniya tərəfindən tətbiq edilmişdi. Onu da qeyd edək ki, 114 rusiyalı deputatlar Putinin qanunsuz olaraq elan etdiyi ”Donetsk Xalq Respublikası”-”Luqansk Xalq Respublikası” təşkilatlarının ”müstəqilliyini” tanımasını dəstəklədikləri üçün Avstraliya hökuməti tərəfindən sanksiyalara məruz qalıblar.

Bu arada Avstraliyanın xarici işlər naziri Maris Peyn bundan sonra da ölkəsinin Ukraynanı dəstəkləməyə davam edəcəyini və ”Rusiyanın əsassız təcavüzünə görə məsuliyyət daşıyanlara” qarşı sanksiyalar tətbiq edəcəyini bildirib. Yeri gəlmişkən aprelin 14-də Avstraliya Rusiyanın dövlət şirkəti olan ”Qazprom”a qarşı da sanksiyalar tətbiq edib.

***Ağasəf Babayev***



***Qırğızıstan politoloqu, beynəlxalq münasibətlər üzrə ekspert Edil Osmonbetov "Caliber" analitik mərkəzinə müsahibəsində iki ölkə arasındakı münasibətlərin və əməkdaşlığın mövcud vəziyyəti və perspektiv imkanları ilə bağlı maraqlı fikirlər bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.***



# Qırğızıstan Orta Asiya və Qafqaz ölkələrinə 5+3 formatı təklif edir

***- Qırğızıstan Prezidenti Sadır Japarov Azərbaycan Prezidenti İlham Əliyevin dəvəti ilə Bakıya rəsmi səfərə gəldi. Səfər Qırğızıstan və Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi, eləcə də ölkələr arasında dostluq və əməkdaşlıq haqqında müqavilənin imzalanmasının 25 illiyi ərəfəsində baş tutdu. Edil Kubatoviç, bu səfərə, ümumilikdə ölkələrimiz arasında ikitərəfli münasibətlərə dair fikrinizi eşitmək istərdik.***

- Fikrimcə, yeni geosiyasi şəraitdə bu səfər ölkələrimiz arasında strateji tərəfdaşlığın daha da möhkəmlənməsinə xidmət edəcək. Ukrayna müharibəsi, Əfqanıstanda və Cənubi Qafqazda baş verən hadisələr bütün postsovet ölkələrinə güclü təsir göstərir, ona görə də ortaq mədəniyyətə, dinə, dilə malik olan dövlətlər də həm özünü, həm də beynəlxalq platformada başqalarının maraqları müdafiə etmək üçün ümumi strateji gündəliyə malik olmalıdırlar.

Hesab edirəm ki, bu səfərin əsas məqsədi Azərbaycan-Qırğızıstan münasibətlərini daha yüksək səviyyəyə qaldırmaq, strateji tərəfdaşlıq haqqında saziş imzalamaq və iki ölkə arasında 30 illik diplomatik münasibətlərin dönəmində gələcək qarşılıqlı fəaliyyət üçün hökumətlərarası alətlər yaratmaqdır. Elə dövrlər olub ki, ölkələrimiz arasında iqtisadi və siyasi qarşılıqlı əlaqə lazımi səviyyədə deyildi. Halbuki indi bu mənada birmənalı yerdəyişmələr var. Məsələn, ötən il Azərbaycan və Qırğızıstan arasında ticarət dövriyyəsi təxminən 10 milyon dollar təşkil edib və bu gün yaxın gələcəkdə bu göstəricinin artması üçün real ilkin şərtlər artıq mövcuddur.

***- Mətbuatda yazılır ki, Japarovun Bakıya səfəri zamanı bir sıra sənədlərin, o cümlədən Strateji Tərəfdaşlıq haqqında Bəyannamənin və Dövlətlərarası Şuranın yaradılması haqqında Memorandumun imzalanıb. Bu sənədlərin mahiyyətini izah edə bilərsinizmi?***



- Strateji Tərəfdaşlıq Bəyannaməsi uzun illər üçün nəzərdə tutulmuş çox mühüm sənəddir və onun əsasında ölkələr böyük beynəlxalq platformalarda dinc əmək bölgüsündə və qarşılıqlı fəaliyyətdə yeri və rolunu təxminən bərabər şəkildə müəyyən edir.

Dövlətlərarası Şuranın yaradılması haqqında Memoranduma gəlincə, mən hesab edirəm ki, bu, düzgün qərardır, çünki bu, Qırğızıstan və Azərbaycanın hökumətləri, biznes strukturları və müxtəlif təşkilatları arasında qarşılıqlı fəaliyyət üçün bir növ işçi alətdir. Qırğızıstan-Azərbaycan əlaqələrinin inkişafı belə formalaşacaq.

***- Qırğızıstan münaqişədən sonrakı dövrdə Bakının regionda sülhün əldə edilməsinə yönəlmiş səylərini necə qiymətləndirir?***

- Qırğızıstan Azərbaycanın ərazi bütövlüyünü, BMT-nin mövcud olan bütün qətnamələrini tanıyır. Biz hesab edirik ki, işğaldan azad edilmiş ərazilər əsl Azərbaycan torpaqlarıdır, Qarabağ münaqişəsinin həllində ölkənizin prinsipial mövqeyini dəstəkləyirik.

Eyni zamanda, Qırğızıstan müstəqil Azərbaycanın suverenliyinin qorunub saxlanmasının, Cənubi Qafqazda sabitliyin və sülhün bərqərar olmasının tərəfdarıdır ki, bu da bütün Qafqaz regionunun təhlükəsizliyinin təmin olunması da daxil olmaqla son dərəcə mühümdür.

***- Ötən il Azərbaycan və Qırğızıstan birgə investisiya fondunun yaradılması haqqında razılığa gəliblər. Bu istiqamətdə hər hansı addımlar varmı?***

- Qırğızıstanın təcrübəsi var ki, onun əsasında Rusiya Federasiyası ilə, Qazaxıstanla birgə investisiya fondları yaradılıb, indi də Özbəkistanla 50 milyon dollarlıq fond yaradılır. İnanıram ki, bu məsələ iki ölkə liderlərinin Bakıda keçiriləcək görüşündə müzakirə olunacaq. Bu vacibdir, çünki investisiya fondları olmadan, xüsusən də biznes strukturları üçün onların layihələrini təşviq etmək çətindir, onlara təminat lazımdır. İnanıram ki, birgə investisiya fondunun yaradılması ikitərəfli investisiya mühitinin inkişafına və ciddi şəkildə möhkəmlənməsinə töhfə verəcək.

***- Qırğızıstanın Cənubi Qafqaz ölkələrinə təklif etdiyi "5 üstəgəl 3" formatının tətbiqi nə dərəcədə mümkündür?***

- Mərkəzi Asiyanın (MA) 5 ölkəsinin və Cənubi Qafqazın 3 ölkəsinin iştirakını nəzərdə tutan bu formatın həyata keçirilməsi, şübhəsiz ki, zəruridir. Bu gün biz yeni dünya düzəninin formalaşması astanasında olduğumuz zaman yeni geosiyasi vəziyyət yaranıb. Bu şəraitdə Mərkəzi Asiya ölkələri ciddi geoiqtisadi bölgü və təhlükəsizlik arxitekturasının məhvi faktorunu yaxşı başa düşürlər. Buna görə də, Mərkəzi Asiya və Cənubi Qafqazı tranzit dəhlizləri və geoiqtisadi dəhlizlər vasitəsilə bir-birinə yaxınlaşdırmaq cəhdi diversifikasiyanın artmasına töhfə verə bilər ki, bu da öz növbəsində bu iki region ölkələrinin geoiqtisadi sahədə özünü daha inamlı hiss etməsinə şərait yaradacaq.

Paralel olaraq, COVİD-dən sonrakı vəziyyətə və beynəlxalq təhlükəsizlik sahəsində problemlərə baxmayaraq, qloballaşma prosesinin davam etməsi nəzərə alınmalıdır. Başa düşmək lazımdır ki, qloballaşmanın əks tərəfi regionallaşmadır. Əgər indiki reallıqlarda Mərkəzi Asiya regionu və Cənubi Qafqaz ölkələri ortaq gündəm tapa bilsələr, bu, ölkələrimizin beynəlxalq münasibətlər sistemində geosiyasi çəkisinin güclənməsinə, deməli, regional dövlətlərinin suverenliyinin möhkəmlənməsinə töhfə verə bilər.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
Səs
23 aprel
2022-ci il

# Xanımlar, diqqətli olun: Saç boyaları xərçəngə yol açır!



***Saçlar üçün boyaların təxminən 70 faizinin tərkibində insan orqanizmi üçün zərərli maddələr yer alıb. Belə ki, tədqiqatlar göstərib ki, saçlar üçün boyaların şəxsi istifadəsi xərçəngin aşağıdakı növlərinin inkişafı riskini yaradır:***

- Süd vəzisi xərçəngi
- Limfoma
- Xroniki limfoleykoz
- Çoxsaylı mieloma

Bəs bu riskləri azaltmaq üçün nə etməli?

- Əlcəklərdən və ya qoruyucu kremdən istifadə edin:
- İstifadə zamanı ventilyasiyanı yaxşılaşdırmaq üçün pəncərələri açın;
- Duşun altında saçları diqqətlə yuyun;
- Saçları yuyarkən məhsulun bütün bədənə yayılmasına icazə verməyin;
- Boyaları heç vaxt təlimatda göstərildiyindən daha uzun vaxt saçlarda saxlamayın;
- Saçların rənglənməsi arasında intervalları artırın.

# Kəkələmənin yaranmasının səbəbi nədir?




***"Kəkələmə nitq aparatının hər hansısa bir sahəsində baş verən qıcıqlanmalar nəticəsində yaranan, nitqin tempinin və ritminin pozulmasıdır". Bu sözləri SİA-ya açıqlamasında loqoped defektoloq Mədinə Əliheydərova bildirib.***

Onun sözlərinə görə, kəkələmə ən ağır nitq qüsurlarından biridir: "Kəkələmə oğlanlarda qızlara nisbətən 4 dəfə daha çox rast gəlinir. Kəkələminin yaranmasına gətirib çıxaran müəyyən səbəblər var. Solaxaylıq nəticəsində yaranan kəkələmə, ani və xronki stres nəticəsində yaranan kəkələmələr ola bilər. Kəkələmənin yaranma səbəblərinə uşaqlıqda nitqin həddindən artıq yüklənməsi də aid edilir. Bundan başqa yamsılama, yeni böyükləri təqlid etmə nəticəsində, psixoloji səbəblərdən də kəkələmə yarana bilər. Məsələn uşağın qorxmasından sonra yaranan kəkələmələr çoxluq təşkil edir ki, valideynlər də daha çox bu səbəblə müraciət edirlər.

Hazırda cəmiyyətimizdə belə fikirlər də mövcuddur ki, kəkələmə yalnız dərman preparatlarından istifadə və tibbi təsir nəticəsində aradan qalxa bilir. Lakin kəkələminin aradan qalxması üçün kompleks təsir mütləqdir. Bura isə həm tibbi, həm psixoloji, həm də pedaqoji təsir aiddir. Kəkələmənin tam aradan qalxması üçün problemin mənbəyini tapmaq mütləqdir. Bu zaman psixoloq uşaqda yaranan psixoloji problemləri aradan qaldırmalıdır. Təbii ki, yaxşı nəticə əldə etmək üçün dərman müalicəsi və loqoped müalicəsi də aparılmalıdır".

*Səbinə Hüseynli*

# Bakıda polis özünü və nişanlısını öldürüb




**Bakıda polis özünü və nişanlısını öldürüb. SİA-nın məlumatına görə, Daxili İşlər Nazirliyinin bölmə rəisi Zeyni Hüseynov bildirib ki, bu gün günorta saatlarında paytaxtın Nərimanov rayonu ərazisindəki evlərin birində Xəzər RPİ-nin əməkdaşı Tural Aslanov qısqanclıq zəminində nişanlısı Günay Cabbarovanı qətlə yetirdikdən sonra özü də intihar edib. Faktla bağlı araşdırmalar aparılır.**

# Bu gün Bakıda 20 dərəcə isti olacaq

***Aprelin 23-də gözlənilən hava şəraiti açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.***



Şimal-şərq küləyi əsəcək. Abşeron yarımadasında gecə 9-12° isti, gündüz 16-20° isti, Bakıda gecə 10-12° isti, gündüz 18-20° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 764 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət 60-70 % olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz olacaq. Lakin gündüz bəzi dağlıq ərazilərdə az yağış yağacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-14° isti, gündüz 23-28° isti, dağlarda gecə 0-5° isti, gündüz 11-16° isti olacaq.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3220**